Günəş Şərqdən doğur!
№ 22 (5303), 2021-ci il
Qiymıəti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
5 fevral 2021-ci il (cümə)




## 152 nəfər yoluxub, 3 nəfər vəfat edib

Azərbaycanda daha 263 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 152 yeni yoluxma faktı qeydə alınıb, 263 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Ağdamda partlayış baş verib

1 hərbçimiz həlak olub, 2 nəfər yaralanıb



Dünən günorta saatlarında Ağdam rayonu ərazisində partlayış baş verib. Hadisə nəticəsində əsgər Zeynalov Qubad İslam oğlu həlak olub.

(Səh.8)

### Günün içindən...



## “Vaxtımız yoxdur"

Prezident: “Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq”

**“Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq”.**

Bunu Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

(səh.2)

## Türkiyə Azərbaycana 20 ədəd minatəmizləyən maşın göndərib



**Türkiyə Azərbaycana 20 ədəd mexaniki minatəmizləyən maşın göndərib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin tvitter hesabında məlumat verilib.

(səh.4)

# Səlim Müslümov həbs olunub



## Sabiq nazir çoxsaylı sui-istifadə hallarına yol verib

Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

(səh.3)

## Hərbi doktrinanı dəyişdirmək erkəndir

“Müharibə bitib və biz Ermənistanla dövlət sərhədlərimizin formalaşmasının aktiv fazasındayıq. Öncə bu proseslər başa çatmalıdır”

(səh.8)



## 65 yaşdan yuxarı müəllimlər əyani dərslərə cəlb edilməyəcək

(səh.8)

## Səlim Müslümovun həbsi son deyil

Hikmət Babaoğlu: "Gec-tez hər biri törətdiyi əmələ görə cavab verməli olacaq”

(səh.3)

## Bəzi deputatlar saxta yollarla özlərinə “yardım" düzəldirlər

“Sistemdə fundamental araşdırmalar aparılmalı, saxtakarlıqlar ifşa olunmalıdır”

(səh.6)

## Gələcək nəsil qrip viruslarından əziyyət çəkməyəcək

Rusiyalı virusoloqların təxminləri doğrudur

(səh.8)



## Hilallı, ulduzlu bayrağa döndü

Şuşa fatehini düşmən ürəyindən nişan alıb

(səh.9)



## İki oğlunun itkin düşdüyünü deyən qadının övladı olmayıb

(səh.6)

# "Vaxtımız yoxdur"

## Prezident: "Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq"

"Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq". Bunu Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, dünya praktikasına baxaraq Azərbaycan standartları hazırlanmalıdır: "Azad edilmiş ərazilərdə olan minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir.



### "Minatəmizləmə işləri elə aparılmalıdır ki, qısa müddət ərzində bərpa işlərinə start verə bilək"

Təmizləmə işləri də, əlbəttə ki, ardıcıllıqla aparılmalıdır. Burada prioritetlər düzgün müəyyən edilməlidir. Bu prioritetlər bizim bərpa işlərimizlə uzlaşmalıdır. Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin. Çünki əvvəlki agentliyin texniki təchizatı çox aşağı səviyyədə idi, say tərkibi aşağı səviyyədə idi. Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir".

**"Ən müasir texnika ölkəmizə gətirilməlidir"**

**Prezident bildirib ki, minatəmizləmə işləri elə aparılmalıdır ki, qısa müddət ərzində bərpa işlərinə start verə bilək:** "Yeni texnikanın alınması növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər". Dövlət başçısı deyib ki, agentliyin qarşısında böyük vəzifələr durur: "İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik dövlət agentliyidir. Əlbəttə ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır".

**"Vətəndaşlardan xahiş edirəm azad olunmuş torpaqlara icazəsiz getməsinlər"**

**Ölkə rəhbəri vətəndaşlardan xahiş edib ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər:** "Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin. Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. İnsanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşayıblar. Hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun. Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər".

**"Beynəlxalq təşkilatlar da bizim bu agentliyin xidmətindən istifadə edə bilər"**

**Prezident vurğulayıb ki, beynəlxalq təşkilatlar agentliyin xidmətindən istifadə edə bilərlər:** "İnkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik. Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir. Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər".

**"Azad olunmuş 7 min hektar ərazidə payız əkini aparılıb"**

**Ölkə rəhbəri bildirib ki, artıq azad olunmuş 7 min hektar ərazidə payız əkini aparılıb:** "Yaşayış məntəqələrinə gəldikdə, biz, ilk növbədə, şəhərləri bərpa etməliyik. Bütün şəhərlərin əraziləri birinci növbədə minalardan təmizlənməlidir. Bununla paralel olaraq, yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi "ağıllı kənd" konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. "Ağıllı kənd" birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır. Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib". Dövlət başçısı vurğulayıb ki, azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıb: "Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim. Deyə bilərəm ki, payızlıq əkin də aparılıb. Baxın, müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başlamışıq. Mənə gündəlik məlumat verilir, 7 min hektarda artıq payız əkini aparılıb. Yəni bu, yenə də bizim gücümüzü göstərir. Onu göstərir ki, biz bir dəqiqə də, bir gün də gözləmək istəmirik".

**İsmayıl**



## Fərman imzalanıb

### "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə" təsdiq edilib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"ni təsdiq edib.**

Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları və dövlət qurumları Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi təşkil edilmiş müvafiq ərazilərdə fəaliyyətlərini Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazidəki xüsusi nümayəndəsi ilə əlaqələndirilmiş qaydada həyata keçirirlər.

Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etməlidir.

## Minatəmizləmə Agentliyinin İdarə Heyətinə sədr təyin edilib

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinə sədrin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamla Vüqar Əhəd oğlu Süleymanov Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri təyin edilib.

V.Süleymanov bu günədək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.

## Ötən il 30 mindən çox Ermənistan vətəndaşı Rusiya pasportu alıb

**2020-ci ildə 31 minə yaxın Ermənistan vətəndaşı Rusiya pasportu alıb.**

Trend-in məlumatına görə, bu barədə Rusiya Daxili İşlər Nazirliyi bildirib. Qeyd olunur ki, 2019-cu ildə bu rəqəm 24 minə bərabər idi.

Ümumilikdə son 3 il ərzində 82 min Ermənistan sakini Rusiya vətəndaşlığı alıb.

## Dərnək və məşğələlər bərpa olunur

### 15 fevral tarixindən bağçalar da fəaliyyətə başlayacaq

**Məktəbəqədər təhsil müəssisələrində təlimin əyani formada bərpa olunacağı tarix açıqlanıb.**



Təhsil Nazirliyindən verilən məlumata görə, 15 fevral tarixindən məktəbəqədər təhsil müəssisələrində təlim əyani formada bərpa olunacaq.

Fevralın 8-dən dərnək məşğələlərinin ənənəvi formada keçirilməsi də bərpa olunur. Bu barədə Sputnik Azərbaycan-a Təhsil Nazirliyindən məlumat verilib.

Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən müstəqil tədris binası və əlverişli maddi-texniki bazası dərnək üzvləri arasında fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçiriləcək.

# Erməni silahları Qarabağdan çıxarılır



## Şair Ramaldanov: “Azərbaycan ərazisində ancaq bir silahlı qurum qala bilər, o da ölkəmizə tabe olan silahlı qurumlardır”

**Ermənistan Azərbaycan ərazilərindən çəkilməyə davam edir. Ermənistan KİV-lərinin məlumatına görə, hava hücumundan müdafiə sistemləri Xankəndidən çıxarılıb.**

Əsasən, ”9K33 Osa”, ”9K35 Strela-10” özüyeriyən zenit raket kompleksləri və ”9K38 İqla” zenit-raket kompleksindən ibarət sistemlər Ermənistanın Gorus şəhərinə aparılır. Hərbi kolonu Rusiya sülhməramlıları müşaiyət edir. Azərbaycan Ordusu 44 günlük döyüşlər zamanı düşmənin Hava Hücumundan Müdafiə Sisteminin böyük hissəsini darmadağın etdiyindən bölgədən çıxarılan hərbi texnikanın sayı cüzidir.

**Məsələni ”Şərq”ə dəyərləndirən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, baş verənlərdə Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və müdrikliyi bir daha sübut edildi:** ”Monitorinq qrupunun bir üzvü kimi qardaş ölkənin yer alması Azərbaycanın maraqlarına cavab verir. Bir müddət bölgədəki ərazilər Rusiya sülhməramlılarının nəzarəti altında oldu. Artıq Türkiyə-Rusiya monitorinq qrupu fevralın 1-dən fəaliyyətə başladı. Lakin monitorinq qrupu yaranana qədər Rusiyanın maraqlarımıza zidd olan hərəkətlərini gördük. İlk növbədə Laçın dəhlizi nəzartəsiz qaldı. Rus sülhməramlılar Ermənistan xarici işlər nazirinin separatçı rejimin rəhbəri ilə görüşməsinə şərait yaratdı”.

Polkovnik qeyd edib ki, monitorinq qrupu fəaliyyətə başlayandan bəzi məsələlər öz həllini tapır: ”Məhz separatçı rejimin silahları və digər hərbi texnikaları ərazilərimizdən çıxarılır. Azərbaycan ərazisində ancaq bir silahlı qurum qala bilər, o da ölkəmizə tabe olan silahlı qurumlardır.

Hələlik sülhməramlı qüvvələrin yerləşdiyi və Azərbaycan tərəfinin bir müddət nəzarət etmədiyi ərazilərdə məhz silahlı insanlar haqqında məlumatımız var. Onlar tərksilah edilməyib. Bu da bütün normalara ziddir. Fikrimcə, monitorinq qrupu işə başlayıb, bundan sonra həmin məsələlər də öz həllini tapacaq”.

**Ş.Ramaldanov vurğulayıb ki, Rusiya sülhməramlı qüvvələri də Ermənistanın hərbi avadanlıqlarının daşınmasına nəzarət etmirlər:** ”Onlar bunu yerinə yetirmirlərsə, hansısa şəxslər qanunlarımıza zidd şəkildə silah daşıyırsa, bu, sülhün bərqərar edilməsinə maneçilik törədir. Belə olan halda təxribatlar ola bilər. Azərbaycan tərəfi bölgədə yaşayan ermənilərə hücum çəkib təhlükəli addım atmaq niyyətində deyillər. Ona görə də onların özlərini qorumağa ehtiyac yoxdur. Silahlar daşınsa, Ermənistan hərbiçiləri tərksilah edilsə, sülh prosesi sürətlənəcək”.

**Yeganə Bayramova**

## Səlim Müslümovun həbsi son deyil

### Hikmət Babaoğlu: ”Gec-tez hər biri törətdiyi əmələ görə cavab verməli olacaq”



**Sabiq Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov həbs edilib. Hüquq-mühafizə orqanları keçmiş məmuru ciddi korrupsiya faktları ilə saxlayıb.**

S.Müslümov DGK-nin sədr müavini olduğu vaxtda korrupsiya əməlinə görə həbs həyatı yaşayıb. Sabiq nazir bəraət aldıqdan sonra DSMF sədri, daha sonra isə əmək və əhalinin sosial müdafiə naziri vəzifəsində çalışıb.

Xatırladaq ki, 2018-ci ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən o, vəzifəsindən azad edilib.

Bu, ölkədə islahatlar dalğasının getdiyinin növbəti təzahürüdür. Görünür, bəzi məmurlar ”ağıllanmayanadək” analoji proseslər davam edəcək.

**Məsələ barədə ”Şərq”ə danışan millət vəkili, ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu da bu fikirdədir:** ”Vəzifə səlahiyyətlərindən sui-istifadə edən hər bir məmuru eyni aqibət gözləyir. Gec-tez hər biri törətdiyi əmələ görə cavab verməli olacaq. Azərbaycan tarixində artıq yeni inkişaf mərhələsi başlayıb. Və bu mərhələdə bizim qarşımızda duran xeyli məsələlər var.

Ona görə məmurlar da öz işlərinə diqqətlə yanaşmalıdırlar. Əlbəttə, həyata keçirilən islahatlar davamlı prosesdir. Hansısa neqativ halların üzə çıxmaması üçün bu, çox vacibdir. Amma Prezidentin söylədiyi kimi, belə məsələlərdə ictimai rəy də mühüm rol oynayır. Yəni baş verən özbaşınalıqlara ictimaiyyət də reaksiya verməlidir ki, daha keyfiyyətli və operativ nəticə olsun”.

**Kənan**

# Səlim Müslümov həbs olunub

### Sabiq nazir çoxsaylı sui-istifadə hallarına yol verib



**Dövlət Təhlükəsizliyi Xidməti sabiq nazir Səlim Müslümovun həbsi ilə bağlı məlumat yayıb.**

“Şərq” DTX-nin saytına istinadən xəbər verir ki, məlumata əsasən, Müslümov Səlim Yanvar oğlunun Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

Toplanılmış materiallar əsasında başlanılmış cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurması-na, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyənləşib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub. Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyənləşib.

Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev ilə görüşüb. Görüşdə Gürcüstan və Azərbaycan arasındakı dostluq və strateji münasibətlər müzakirə olunub. Tərəflər həmçinin hər iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlığın müsbət dinamikasını vurğulayıblar.



# Türkiyə faktoru da mühüm rol oynayır

## Tiflis yaxşı bilir ki, Azərbaycanla hərbi əməkdaşlıq Gürcüstanın qarantiyasıdır

Görüş zamanı müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilə bağlanması və hərbi təhsil sahəsindəki əlaqələrin əhəmiyyəti də gündəmə gətirilib. Bəyan edilib ki, iki qonşu ölkənin hərbi sahədə əməkdaşlığı inkişaf etdirməsi dövrün tələbidir.

**Gürcüstanla hərbi əlaqələrin genişləndirilməsi ilə bağlı ”Şərq”ə danışan politoloq Əli Orucov bildirib ki, son zamanlar rəsmi Bakı ilə Tbilisi arasında münasibət dərinləşir.** Ekspert deyib ki, Rusiyaya və Ermənistana bağlı bəzi qüvvələr zaman-zaman ölkələrimiz arasına nifaq salmağa cəhd etsələr də, hökumət başçılarının sağlam mövqeyi nəticəsində münasibətlər zədələnmir: ”Azərbaycan bölgədə yeni reallıqlar yaradıb və öz gücünü hər kəsə göstərib. Regionda yaşanan hadisələr və Rusiya faktoru Gürcüstanı Azərbaycana yaxınlaşmağa sövq edir. Rəsmi Tiflis yaxşı bilir ki, Azərbaycanla yüksək əlaqələr qurmadan bölgədə normal yaşayış mümkün deyil. Xüsusən, hərbi sahədə əməkdaşlığı inkişaf etdirmək Gürcüstanın təhlükəsizliyi baxımından olduqca vacibdir. Qonşu ölkənin də əraziləri işğaldadır və bu məsələyə görə müəyyən təzyiqlərə məruz qalır”.

*Ə.Orucov bildirib ki, 44 günlük müharibədə Azərbaycanın şanlı qələbəsi, müasir döyüş texnikalarından və ağlagəlməz taktikalarından istifadəsi dünyanı heyrətə düşürdü:* ”Əlbəttə, ABŞ-ı, Avropa ölkələrini heyran edən Azərbaycanın hərbi qüdrəti, savaş texnikası Gürcüstanın diqqətini çəkməyə bilməzdi. Hər bir ölkə özündən güclü tərəfdaşla yaxın münasibət saxlamaqda maraqlıdır. Azərbaycanla hərbi əməkdaşlıq Gürcüstanın sığortası, qarantiyasıdır. Həm də nəzərə alaq ki, son dövrlər Gürcüstanın Türkiyə ilə əlaqələri yaxınlaşıb. Bu faktor da Tiflis-Bakı münasibətlərində ciddi rol oynayır. Çox güman yaxın günlərdə iki ölkə arasında birgə hərbi təlimlər keçiriləcək”.

**İsmayıl Qocayev**

## Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinə sədr təyin edilib

**Prezident İlham Əliyev R.T.Hacıyevin Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb**

Sərəncamla Rəhman Tofiq oğlu Hacıyev Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilir.

## Türkiyə Azərbaycana 20 ədəd minatəmizləyən maşın göndərib



**Türkiyə Azərbaycana 20 ədəd mexaniki minatəmizləyən maşın göndərib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin tvitter hesabında məlumat verilib.

"Nazirliyimizin tabeliyində olan ASFAT AŞ tərəfindən istehsal olunan 20 MEMATT (mexaniki minatəmizləyən maşın) qardaş ölkə Azərbaycana ixrac edirik. İlk tədarük dəsti Kayseridən yola düşən Hava Qüvvələrimizə məxsus təyyarə ilə Bakıya göndərilir", - deyə qeyd olunub.

# Baş nazir müavinlərinin Moskva görüşündən nə gözlənilir?

## Elçin Alıoğlu: "Sərhədlərin demarkasiya prosesi başa çatmadan kommunikasiyalar işə düşməyəcək"



**Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev, Ermənistan hökumət başçısının müavini Mqer Qriqoryan və Rusiya Nazirlər Kabineti sədrinin müavini Aleksey Overçuk fevral ayı ərzində görüşəcək. Bu barədə Ermənistan baş nazirinin müavini M.Qriqroyanın ofisindən məlumat verilib.**

Baş nazirlərin müavinlərinin birinci görüşü yanvarın 30-da Moskvada keçirilib. Növbəti görüşdə də bəzi məsələlərin müzakirəsi planlaşdırılır.

**Siyasi şərhçi Elçin Alıoğlu "Şərq"ə açıqlamasında baş nazir müavinlərinin Moskva görüşünün çox önəmli olduğunu bildirib:** "Çünki bu görüşdə sadəcə regional strukturun dəyişməsi müzakirə edilmir. Görüş Cənubi Qafqazın bütün subregional və iqtisadi kommunikasiyalar xəritəsinin dəyişməsinin ilkin mərhələsidir. Məhz bu baxımdan toplantının əhəmiyyəti çox böyükdür. 18-19-cu əsrlərdə iqtisadiyyat siyasət idisə, indi siyasətin özü bir iqtisadiyyatdır. Ona görə də baş nazir müavinlərinin görüşünün əsas məğzi üçtərəfli bəyanatda qoyulub".

*E.Alıoğlu qeyd edib ki, görüş zamanı Ermənistan-Azərbaycan dövlət sərhədinin demarkasiyası müzakirə predmeti ola bilər:* "Qazaxın 7 kəndinin qaytarılması, daha doğrusu, işğal altında olan Azərbaycan ərazilərinin azad edilməsi avtomatik bir prosesdir. Əhalini də maraqlandıran suallardan biri budur. Sərhədlərin tam demarkasiyası olmadan regional kommunikasiya marşrutlarının və transkommunikasiya xətlərinin işə düşməsi qeyri-mümkündür. Heç bir ölkə sərhədində münaqişəli region olan bir dövlətlə milyardlara dollarlıq anlaşma imzalamaz. Azərbaycan istisnadır. Çünki ölkəmiz ərazisinin 20 faizinin işğal altında olmasına rəğmən "Əsrin müqaviləsi"ni imzaladı. Bunun da səbəbi Azərbaycanın stabil dövlət olmasıdır. Ermənistan haqqında isə bunu demək olmaz, çünki qeyri-stabil və parlament ölkəsidir. Bu baxımdan sərhədlərin demarkasiya prosesi başa çatmadan kommunikasiyalar işə düşməyəcək. Bu baxımdan böyük dövlətlər problemin qısa müddətdə həllində maraqlıdırlar".

**Yeganə Bayramova**

# Söyüş debatların simvolu ola bilməz

**Elman Nəsirov:**
"Bu gün üç minə yaxın şəhidə görə ürək ağrısı keçirən partiya sədri sabah deyir ki, hamımız gedib, ölək"

**Sərdar Cəlaloğlu:**
"Tənqidə dözümlülük qarşılıqlı olmalıdır"





*İqtidar və müxalifət arasında zaman-zaman olan çəkişmələr, mübahisələr çoxlarına məlumdur. Hakim partiyanın nümayəndələri ilə digər müxalif partiya sədrləri bir çox hallarda tənqidə dözümsüzlük nümayiş etdirir və siyasi etikanı pozurlar.*

"Yeni müsavat" media holdinqinin əməkdaşı, "TV müsavat"ın moderatoru Sevinc Telmanqızı bu barədə "Şərq"ə danışarkən siyasi mədəniyyətin pozulmasını obyektiv məqamlarla əlaqələndirmişdi: "Konkret bir personanın və ya düşərgənin üzərinə fokuslanmaq olmaz. Çünki bu, debatın formatından, tərəflərin kimliyindən asılıdır. Unutmaq olmaz ki, bəzən də müzakirə olunan mövzuda daha çox haqlı olan, arqumentləri güclü olan tərəf üstün mövqedə olur. Bu zaman daha zəif arqumentli tərəf səsini yüksəltməyə, söz kəsməyə, yersiz halda gərginlik yaratmağa çalışır". Əslində belə cavab təbiidir. Hər halda həmkarımız neytrallığı qorumağa çalışıb.

Odur ki, problemin aktuallığını nəzərə alaraq müxtəlif qütblərin nümayəndələrinin fikirlərini öyrəndik. **YAP-çı deputat Elman Nəsirov dedi ki, müxalifət çox zaman reallığı qəbul etmək istəmir:** "Hərtərəfli və dərin islahatlar kursunun əsas tələblərindən biri də siyasi konfiqurasiyanın formalaşmasıdır. Biz parlamentdəki mənzərəyə baxaraq bunu aydın görə bilərik. Belə ki, Milli Məclisdə səkkiz müxalif partiyanın nümayəndəsi var. Aparılan araşdırmalar nəticəsində mövcud partiyalardan 21-nin legitim olmadığı müəyyənləşib. Məsələ ondan ibarətdir ki, bəzən eyni cinahdan olan iki partiya nümayəndəsi ortaq məxrəcə gələ bilmirlər. Amma İkinci Qarabağ müharibəsi zamanı 51 siyasi partiyanın ümummilli maraqlardan çıxış etməsi tarixi nailiyyətdir. Mən, demək olar, müxalifətin bütün rəhbərləri ilə debatlarda iştirak etmişəm. Məqsəd baş verənlərə konstruktiv mövqe sərgiləməkdir. Əlbəttə, inkişaf üçün tənqid lazımdır. Lakin tənqid məntiqli olmalı və alternativ çıxış yolu göstərilməlidir. Ağıllı təklif hər zaman qəbul olunur. Müxalifət bəzən baş verənləri ancaq qara görmək istəyir. Onlar üçün "palitrada" başqa rəng yoxdur. Məsələn, opponentlərimiz rus sülhməramlılarını işğalçı adlandırırlar. Həmin siyasətçilərdən çıxış yolu soruşuram. Biri deyir ki, hamımız gedib ölək. Digəri beynəlxalq təşkilatlara müraciəti təklif edir. Axı məntiqsizdir...Beynəlxalq təşkilatlar kömək edən olsalar indiyədək çoxdan edərdilər".

E.Nəsirov həmçinin sosial şəbəkələrdəki müəyyən qüvvələrin fəaliyyətinə də toxunub: "Prezident deyib ki, nəyi, nə zaman, necə etmək lazım oduğunu mən bilirəm. Dövlət başçısı bu fikrini əməli işlə, qazandığı tarixi qələbə ilə təsdiqləyir. Dünya onu böyük lider, mahir diplomat kimi qəbul edir. Deməli, Prezidentə inanmaq lazımdır. Bu qədər ciddi problemi həll etmişiksə, digər çatışmazlıqların da aradan qaldırılacağına şübhə yeri qalmamalıdır. Müxalifət nümayəndələrinin fikirləri arasında ziddiyyət olur. Bu gün üç minə yaxın şəhidə görə ürək ağrısı keçirən partiya sədri sabah deyir ki, hamımız gedib, ölək. Çox məntiqsizdir. Belə sitatlar ucuz populizmdən başqa bir şey deyil. Sosial şəbəkələrdə gecə-gündüz şər-böhtan yazanlar var. Bəlkə, heç xanımları da onları kompüter arxasından qaldıra bilmir. Həmin adamlara demək istəyirəm ki, ağıllarını başlarına yığsınlar. Çünki Cinayət Məcəlləsinin 147-ci maddəsi böhtan, 148-ci maddəsi təhqirlə bağlıdır. Bizim qazandığımız tarixi zəfərə kölgə salmaq lazım deyil".

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə düşünür ki, kobud ifadələrdən uzaq durmaq üçün intellekt olmalıdır:** "Siyasətin elmini, nəzəriyyəsini bilmək lazımdır. İnsanlar siyasi terminlərlə fikirlərini ifadə etməyi bacarmalıdırlar. Belə olsa, məişət ritorikasına, o cümlədən söyüşə ehtiyac qalmaz. Mahatma Qandi deyirdi: "Söyüş və lənət bizi məqsədimizə çatmağa qoymur". Söyüşə üstünlük verənlər anlamalıdırlar ki, onlar heç nəyə nail ola bilməzlər. Tənqidə dözümlülük isə qarşılıqlı olmalıdır. Tənqid etmək problem deyil. Əsas məsələ odur ki, böhtana, yalana yol verilməsin, faktlar şişirdilməsin. İqtidar bəzi məsələləri şişirdir. Bəzən isə müəyyən probemləri həll etməyə hazır olmadıqlarına görə bizimlə razılaşmırlar".

**Kənan Novruzov**



## Doğuş pulsuz olmalıdır

### İcbari tibbi sığortanın birinci şərti ayrılan vəsaitə bağlıdır

**Fevralın 4-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin brifinqi keçirilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Departament rəhbəri Vüqar Qurbanov bildirib ki, İcbari tibbi sığorta zərfinə əhalinin daha çox ehtiyac duyduğu xəstəliklərin artırılması gözlənilir.**

Onun sözlərinə görə, xidmət zərflərinə yeniləri əlavə ediləcək: "Xidmətlər zərfinə kardioloji və neyroloji xidmətlər əlavə edilib. Buna açıq və qapalı ürək əməliyyatları, invaziv radiologiya xidmətləri də daxildir. 2020-ci ildə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən 2500-ə yaxın tibbi xidmət təqdim edilib. Bu sayın 3 minə qədər artırılması nəzərdə tutulur".

**Mövzu ilə bağlı "Şərq"ə danışan tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, İcbari Tibbi Sığortanın başlanmasının birinci şərti ayrılan vəsaitə görə planlamadır:** "Bu da ilk növbədə doğuş və təxirəsalınmaz yardımdan ibarətdir. Əgər əhali doğuş və təxirəsalınmaz yardımın pulsuz təminatına nail ola bilərsə, bunu başlanğıc üçün böyük uğur hesab etmək olar.

Hələ ki bütün tədbirləri bir yerdə toplamaq tezdir. Dünya da bu yoldan keçib. Biz Amerika kəşf etmirik ki... Və yaxud xüsusi istedad tələb olunmur.

Qonşu Türkiyəyə nəzər salmaq, həmin qaydada addımlamaq lazımdır. Başqa təkliflər, hansısa reallığa əsaslanmayan və ya tibbi sığorta üçün ayrılan vəsait maaşlardan toplanacağı təqdirdə problem yarana bilər. Ayağımızı yorğanımıza görə uzatmalıyıq".

**Aygün**

# Sülhün generalları

## Onlar əmin-amanlıq yaratmağa həm də odun-alovun içindən gəlib

Məlum olduğu kimi Türkiyə-Rusiya Monitorinq Mərkəzinin qərargahı paritet əsasda qurulub və qurumda hər tərəfdən bərabər sayda nümayəndə təmsil olunub. Mərkəzdə Türkiyə və Rusiyadan ümumilikdə 120 hərbçi xidmət aparacaq. Mərkəz atəşkəs rejiminə riayət olunması və razılığın pozulması barədə məlumatları toplayaraq yoxlayacaq və ümumiləşdirəcək.





### "Türkiyə hərbçilərinin yüksək peşəkarlığından heç kimin şübhəsi olmasın"

Bölgəyə nəzarət isə pilotsuz uçuş aparatları və digər texniki vasitələrdən istifadə olunmaqla həyata keçiriləcək. Mərkəzin əvvəllər Gəncə və ya Bərdə şəhərlərində yerləşməsi variantları müzakirə olunsa da, Türkiyə bu rayonların Rusiya sülhməramlılarının əməliyyat zonasından coğrafi uzaqlığı səbəbindən təklifə razılıq verməyib. Müzakirələr nəticəsində seçim Azərbaycanın Ağdam rayonunun Mərzili kəndinin üzərində dayanıb. Nəticədə yanvarın 30-da açılış mərasimi keçirilən Mərkəz fəaliyyətə başlayıb. Qərargah Xankəndidən düz xətt üzrə 30 kilometr, avtomobil yolu boyunca isə 41 km məsafədədir. Monitorinq Mərkəzi ilə bağlı müzakirə olunan məsələlərdən biri də qurumda xidmət göstərən türk və rus hərbçilərinə rəhbərlik edən şəxslərlə bağlıdır. Bilindiyi kimi Rusiya hərbçilərinə general-mayor Viktor Fedorenko, türklərə isə general-mayor Abdullah Qatırçı komandanlıq edir. Artıq hər iki generalla bağlı müzakirələr və mülahizələr getməkdədir. General-mayor Viktor Fedorenko 2011-ci ildə polkovnik rütbəsi ilə Rusiya Silahlı Qüvvələrinin 4 hərbi dairəsindən biri olan Cənub Hərbi Dairəsinin Radioelektron Mübarizə Xidmətinin rəisi təyin olunub. Eyni vaxtda Cənub Hərbi Dairəsinin qərargah rəisinin müavini vəzifəsini icra etməyə başlayıb və 10 il bu vəzifədə çalışıb. Rusiyalı general-mayor Suriya müharibəsinin də iştirakçısıdır.

Türk hərbçilərinin başınada dayanacaq general-mayor Abdullah Katırçı isə 2020-ci ilin avqust ayının 23-də Yüksək Əsgəri Şuranın qərarı ilə general rütbəsi alıb. O, polkovnik rütbəsi ilə uzun müddət Türkiyə Silahlı Qüvvələrinin quru qoşunlarının İzmir və Menemendə yerləşən 57-ci topçu alayının komandir müavini və komandiri vəzifəsini icra edib. İnternet məkanında general Katırçı barəsində geniş məlumat əks olunmayıb. Görünür, bu səbəbdən sosial şəbəkələrdə və saytlarda Rusiyanın Monitorinq Mərkəzinə daha peşəkar və hazırlıqlı kadr göndərdiyi iddia olunub.

**İddialarla bağlı "Şərq"ə fikirlərini bölüşən ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib ki, Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlaması olduqca əhəmiyyətlidir. Hərbi ekspertin sözlərinə görə, Mərkəzdəki türk və rus generallarını bir-biri ilə müqayisə etmək düzgün deyil:** "İlk növbədə nəzərə almaq lazımdır ki, generallar bura hansısa hərbi əməliyyatları yönləndirmək üçün gəlməyiblər. Onlardan yüksək hücum və müdafiə qabiliyyətini sərgiləmək tələb olunmur. Mərkəzin konkret missiyası, funksiyasının nədən ibarət olduğu bəllidir və region dövlətləri arasında müzakirə olunub. Monitorinq Mərkəzinin əsas vəzifəsi nəzarəti həyata keçirmək, vaxtında informasiya ötürməkdir. Belə şəraitdə türk və rus hərbçilərinə rəhbərlik edən generalların karyerası o qədər mühüm rol oynamır. Burada hərbi təcrübədən söhbət getmir. Çünki ortada konkret tapşırıqlar və fəaliyyət proqramı var. Hərbçilər nəyi, necə etməli olduğunu əvvəlcədən bilirlər. Əfsuslar olsun ki, Rusiya sülhməramlıları öz funksiyasını tam olaraq yerinə yetirmir. Bir müddət əvvəl Ermənistan Xarici işlər naziri Ara Ayvazyan qanunsuz olaraq Qarabağa gəldi, görüşlər keçirdi və getdi. Halbuki, sülhməramlılar Ayvazyanın Xankəndinə gəlişi ilə bağlı ən azından məlumat verməli idilər. Digər tərəfdən Xocavənddə faşist Njdeyə heykəl qoyulmasının qarşısı alınmalı idi. Həmçinin, Laçın dəhlizinə nəzarət edilməlidir. Kəlbəcərə gedən yük maşınlarımızın qarşısı kəsilməməlidir. Bunlar göstərir ki, Rusiya sülhməramlıları obyektiv fəaliyyət göstərmir və ermənipərəst mövqedən çıxış edirlər".

*Ş. Ramaldanov vurğulayıb ki, Türkiyənin təmsil olunduğu Monitorinq Mərkəzi bu cür neqativ hallarla bağlı dərhal rəsmi Bakıya və digər hökumətlərə məlumat verəcək:* "Mərkəz 4-5 gündür işə başlayıb, artıq indidən xəbər yayılır ki, Qarabağda separatçılara məxsus silahlar bölgədən çıxarılır. Türkiyə hərbçilərinin yüksək peşəkarlığından heç kimin şübhəsi olmasın. Qardaş ölkənin güclü ordusu və kadrları NATO prinsipləri çərçivəsində formalaşıb. Türkiyə əsgərləri, generalları dünyanın bir çox ölkəsində Suriya, İraq, Liviya və Əfqanıstanda həm döyüş əməliyyatları icra ediblər, həm də sülhməramlı missiyanı yerinə yetiriblər. Əmin olun ki, general Abdullah Katırcı Azərbaycanın mövqeyini və maraqlarını bizim kimi qoruyacaq. Rus generalın yaşının çox olması, daha əvvəl general rütbəsi alması heç nəyi dəyişmir. Ağıl yaşda yox, başdadır. Türkiyənin hərbçiləri ruslardan daha peşəkar və qətiyyətli olduqlarını Yaxın Şərqdə və bir çox qaynar nöqtələrdə dəfələrlə isbat ediblər. Həm də bölgədə nəzarət ən müasir sistemlər, PUA-lar vasitəsi ilə aparılacaq. Türkiyə zabitlərinin bu işlərdə təcrübəsi hamıya məlumdur. Sözün qısası, iki generalı "tərəziyə qoyub çəkənlərin" və rus zabitə artıq "xal" verənlərin hərb sənətindən anlayışları yoxdur".

**İsmayıl Qocayev**



## ABŞ Türkiyəni uzaqda saxlamaz

### Bayden Ərdoğan görüşündə gələcək əməkdaşlığın bünövrəsi qoyulacaq

**Yaxın günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın yeni Prezidenti Cozef Baydenlə görüşəcək. Bununla bağlı Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın və ABŞ milli təhlükəsizlik müşaviri Cek Sallivan arasında telefon danışığı olub.**

Baydenin indiyə kimi dörd dəfə Türkiyədə olduğunu, Prezident Ərdoğanı şəxsən tanıdığını bildirən Sallivan ABŞ prezidentinin Türkiyə lideri ilə yaxından əməkdaşlıq etmək istədiyini qeyd edib. O, həmçinin, Türkiyənin nə qədər mühüm bir ölkə olduğunu vurğulayıb.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli yaxın zamanda baş tutacaq görüş haqqında fikirlərini "Şərq"lə bölüşüb:** "Əslində Cozef Bayden seçki öncəsi Ərdoğana qarşı xoş olmayan fikirlər səsləndirmişdi. O bildirmişdi ki, müxalif qüvvələrə yardım etməklə Ərdoğanı hakimiyyətdən devirmək niyyətindədir. Bu zaman Bayden öz təəssüratlarına əsaslanaraq çıxış edirdi. Lakin dövləti idarə etmək üçün tamam başqa situasiyada olmaq lazımdır. Buna görə də seçkiqabağı söylənilən fikirlərin əksəriyyəti unudulur və günün tələblərinə uyğun olaraq hərəkət etmək lazım olur".

**Politoloq gözlənilən görüşün hər iki ölkə üçün uğurlu olacağını qeyd edib:** "Türkiyə NATO-ya daxil olan əhəmiyyətli dövlətlərdən biridir. Ərdoğanın hakimiyyətdə olduğu dövrdə bu ölkə çox inkişaf etmişdir. Türkiyənin coğrafi mövqeyi NATO, xüsusilə ABŞ üçün böyük əhəmiyyət kəsb edir. Fikrimcə, Ərdoğan və Baydenin görüşü zamanı gələcəkdəki əməkdaşlığın bünövrəsi qoyulacaq. Buna görə də iki ölkə arasında hər hansı bir problem və ya ziddiyyət yaşanmayacaq. Əksinə, Amerika çalışacaq ki, Türkiyə ilə daha yaxın və mehriban müttəfiq olsun".

**Aytac Ali**

# II Fəxri Xiyaban, yoxsa III Şəhidlər Xiyabanı?

General-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin uyuduğu, Vətən müharibəsi şəhidlərinin dəfn olunduğu xiyabanın adı ilə bağlı cəmiyyətdə müzakirələr aparılır. İnsanlar isə həmin ərazini müxtəlif adlarla tanıyır.



## Cavid İsmayıl: "Dövlətin rəsmi qurumları bu məsələyə aydınlıq gətirməlidir"

Kimisi II Fəxri Xiyaban deyir, kimisi də II Şəhidlər Xiyabanı. Məsələn, II Fəxri Xiyaban tərəfə yolunuz düşsə, yeni Şəhidlər Xiyabanını soruşsanız, sizə ünvanı şəhid general Polad Həşimovun ismi ilə izah edəcəklər. Bir sözlə, o müqəddəs məkanın dəqiq adı bilinmir.

**Araşdırmaçı-jurnalist Cavid İsmayıl da bu mövzuya toxunaraq feysbuk səhifəsində yazdığı statusda fikrini bildirib:** "Rəsmi qurumlar II Fəxri Xiyaban və III Şəhidlər Xiyabanı anlayışlarına konkretlik gətirsə, yaxşı olar. II Fəxri Xiyaban və II Şəhidlər Xiyabanı bir yerdə yerləşir, giriş qapısı da eynidir. Mübariz İbrahimov və aprel şəhidləri II Şəhidlər Xiyabanında torpağa tapşırılıb. General Polad Həşimov və Vətən Müharibəsi şəhidləri isə faktiki olaraq yeni Şəhidlər Xiyabanında dəfn olunsa da, oranı da II Fəxri Xiyaban adlandırırlar rəsmən. Halbuki, II Şəhidlər Xiyabanı ilə bura arasında ən azı 1 km məsafə var. Təbii olaraq giriş qapıları da ayrıdır. Bu səbəbdən "III Şəhidlər Xiyabanı" ifadəsinin rəsmiləşdirilməsinin tərəfdarıyam".

**Biz də həmkarımızla əlaqə saxlayıb, daha ətraflı şərhini öyrəndik. O, "Şərq"ə bunları söylədi:** "Düzdür, bu məsələ ilə bağlı bəzi təkliflər var. Məsələn, "III Şəhidlər Xiyabanı" ifadəsi əvəzinə, yerləşmə məkanına uyğun "Yasamal şəhidliyi" ifadəsi də təklif edilir. Düşünürəm ki, həm Qarabağ müharibəsinin, həm də bu savaşda verdiyimiz qurbanların miqyasını nəzərə çatdırmaq, eyni zamanda şəhidlərimiz arasındakı mənəvi və tarixi-xronoloji bağları qoparmamaq məqsədilə "III Şəhidlər Xiyabanı" ifadəsi daha doğrudur".

"Həmin Şəhidlər Xiyabanına cənab generalın adı verilə bilərmi" sualını C.İsmayıl belə cavablandırıb: "Xalq arasında "Polad Həşimov dəfn olunan Şəhidlər Xiyabanı" kimi tanınsa da, yenə də fikrimdə qalıram".

**Samirə Ərəbova**



# Bəzi deputatlar saxta yollarla özlərinə “yardım” düzəldirlər

## “Sistemdə fundamental araşdırmalar aparılmalı, saxtakarlıqlar ifşa olunmalıdır”

Dövlət Sosial Müdafiə Fondundakı qanunsuzluqlar çərçivəsində aparılan istintaqla bağlı bəzi məqamlar üzə çıxıb. Saytlarda və sosial şəbəkələrdə yayılan məlumatlarda DSMF-nin yaşı çatmamasına və səhhətində heç bir problem olmamasına baxmayaraq, bir sıra deputatları saxta yollarla pensiyaya çıxartdığı bəlli olub.

Vurğulanıb ki, adı hallandırılan şəxslər arasında sabiq parlamentarilərlə yanaşı, hazırda deputat fəaliyyətini davam etdirənlər də var. Qeyd edilib ki, bu sənədlərin hazırlanmasında iştirak edən DSMF-nin sabiq vəzifəli şəxsi artıq saxlanılıb. Onunla bərabər daha bir neçə nəfərin də həbs olunacağı istisna edilmir.

**”Altay” Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı ”Şərq”ə açıqlamasında bəyan edib ki, sosial müdafiə sistemində bu cür neqativ halların sayı-hesabı yoxdur.** Ekspertin sözlərinə görə, həm ünvanlı sosial yardım, həm digər sosial müavinətlərin, pensiyaların verilməsində xeyli sayda saxtakarlıq faktları aşkarlanıb və mətbuatda işıqlandırılıb. Lakin problemlər hələ də həllini tapmır: ”Haqqı çatan, ehtiyacı olan qalır kənarda, haqqı olmayanlar dövlətdən yardım alır. Deputatlar isə insanların sosial müavinət problemlərini həll etmək əvəzinə mütəmadi öz maaşlarının artırılmasını təklif edir, bəziləri isə saxta yollarla özlərinə ”yardım” düzəldirlər. Əlbəttə, bu halda cəmiyyətdə sosial narazılıq, xüsusən deputatlara qıcıq anlaşılandır. Halbuki, dövlət əhalinin sosial müdafiəsinə çox böyük vəsaitlər ayırır. Büdcənin üçdə biri sosial məqsədlərə sərf olunur. Ancaq yerlərdə müavinət və pensiyanın verilməsi prosesi şəffaf aparılmır, qanunsuzluqlara yol verilir. Nəticədə həm insanlarda narazılıq artır, həm də külli miqdarda vəsait mənimsənilir”.

**İqtisadçı hesab edir ki, sistemdə fundamental araşdırmalar aparılmalı, saxtakarlıqlar ifşa olunmalıdır:** ”Təkcə keçmiş vəzifəli şəxsi həbs etməklə iş bitmir. Yüzlərlə vəzifəli şəxs bu maxinasiyalarda iştirak edib, milyardlarla pul mənimsənilib. O pullar dövlətə qaytarılmalı, sosial yardımlar qanuna və ədalətə uyğun olaraq təyin olunmalıdır. Korrupsiyaya bulaşmış şəxslər həbs edilməli, onların bütün əmlakı müsadirə edilməlidir. Əhalinin sosial qayğıya ehtiyacı olan hissəsi dəqiq müəyyənləşdirilməli, qanunauyğun sosial yardım almalıdırlar. Bundan başqa işsizlər qeydiyyata alınmalı və işlə təmin olunanadək ən azı minimum ehtiyac meyarı həddində pul almalıdırlar. Pandemiyaya görə işini itirmiş, işi dayanmış şəxslərə də yardım verilməlidir”.

**E.Bayramlı uşaqpulunun bərpa edilməsinin, heç olmasa, aztəminatlı ailələrə verilməsinin zəruri olduğunu bildirib:** ”Əgər ailədə adambaşına minimum ehtiyac meyarından aşağı gəlir varsa, mütləq kompensasiya ödənməlidir. Hazırda minimum ehtiyac meyarı 200 manat civarındadır. Ailədə 5 nəfər varsa və ümumi gəlir 600 manatdırsa, deməli, dövlət əlavə 400 manat ödəməlidir. Çünki minimum ehtiyac meyarı o deməkdir ki, ondan aşağı vəsaitlə yaşamaq mümkün deyil. Əgər mənimsənilən vəsaitlər geri alınarsa, bütün problemləri həll etmək olar. Ümid edirəm, bu tipli saxtakarlıqlara tezliklə son qoyulacaq”.

**İsmayıl Qocayev**

# İki oğlunun itkin düşdüyünü deyən qadının övladı olmayıb

## Qardaşının dediyinə görə, bacısının psixoloji problemləri var



**Bir sıra sosial şəbəkələrdə və mediada Vətən müharibəsində iki oğlu itkin düşən ana ilə bağlı reportaj yayımlanıb.** Reportajda Rəna Kazımova adlı qadın oğlanları Valid və Azər Kazımovun müharibədə itkin düşdüyünü və bu günə kimi onlardan xəbər ala bilmədiyini vurğulayıb. Maraqlısı budur ki, Müdafiə Nazirliyinin açıqladığı itkin siyahısında Valid və Azər Kazımov qardaşlarının adı yoxdur.

Bu səbəbdən də ”Qafqazinfo” məsələni araşdırıb. Məlum olub ki, R. Kazımovanın ümumiyyətlə övladı yoxdur. O, əslən Lənkəranın Osakücə kəndindəndir. 1 il yarımdır ki, Suraxanı rayonu Hövsan qəsəbəsində kirayədə yaşayır. Suraxanı Rayon Səfərbərlik Xidməti də sözügedən adda olan şəxsləri xidmətə çağırmayıb.

Lənkəran rayonu Osakücə kəndinin bələdiyyə sədri Həkət Cavadova da bildirib ki, Rəna Kazımovanın ruhi problemləri var. Onun hərbi xidmətə gedəcək yaşda övladı yoxdur:

”Mən elə indi onun qardaşı ilə danışdım. Məlum oldu ki, həmin qadının dediyi Valid onun özünün yox, qardaşının oğludur. Özü də illər əvvəl Rusiyaya gedib və orada yaşayır. Onun ümumiyyətlə, övladının olması ilə bağlı məlumat yoxdur”.

H. Cavadova bildirib ki, qardaşının dediyinə görə, bir neçə il əvvəl doğulduğu kəndə gəlib və yanında Azər adında azyaşlı oğlan olub. Lakin bu uşağın onun özünün oğlu olub-olmadığı da bilinmir:

”Qardaşının dediyinə görə, bacısının psixoloji problemləri var. Bir dəfə 2015-ci ildə kəndə gəlib və yanında 7-ci sinifdə oxuyan Azər adında uşaq olub. Onun sənədlərini hazırlayıblar və müalicə etdiriblər. Lakin uşağın onun oğlu olub-olmadığı, hazırda söhbətin həmin Azərdən getdiyi də bilinmir. Amma o dəqiqdir ki, onun Valid adında oğlu yoxdur”.

# Parlamentin indiki tərkibi müharibə günlərində heç nəyə yaramadı

Sosial şəbəkələrdə Milli Məclis üzvlərinin aylıq əməkhaqlarını əks etdirən cədvəlin yayılması ictimaiyyətdə ciddi rezonans doğurub. Maaş cədvəlinə münasibət bildirənlərin əksəriyyəti deputatların bu qədər çox məvacib almasına kəskin etiraz ediblər.

## “Elə deputat var ki, indiyə kimi bir şəhid ailəsinin qapısını açmayıb, hansısa qazinin evini ziyarət etməyib. Uzaqdan zəng belə etməyiblər”

Narazılığın artmasından sonra Milli Məclisin mətbuat xidməti yayılan söz-söhbətə aydınlıq gətirib. Parlamentdən vurğulanıb ki, bir sıra sosial şəbəkələrdə ”Deputatların yeni əməkhaqqı cədvəli” başlığı altında yayımlanan iddialar həqiqəti əks etdirmir. Bəyan edilib ki, bəzi qərəzli dairələr tərəfindən bu cür yalan iddiaların irəli sürülməsində məqsəd ictimai rəyi çaşdırmaq, Milli Məclisin nüfuzuna xələl gətirməkdir. Qeyd olunub ki, spiker 2 min 475 manat miqdarında, sədr müavinləri 2200, komitə rəhbərləri isə 1900 manat civarında aylıq maaş alır. Bundan başqa sədr və deputatlar əlavə xərclər üçün vəzifə maaşlarının 50 faizi məbləğində vergilərdən azad olunan aylıq pul təminatı alırlar.

**Siyasi şərhçi, tanınmış jurnalist Azər Həsrət ”Şərq”ə bildirib ki, cəmiyyət şəffaflıq istəyir və tələb edir ki, hər kəs layiq olduğu qiyməti almalıdır.** Media nümayəndəsinin sözlərinə görə, Milli Məclis rəsmiləri iddiaları təkzib etmək əvəzinə deputatların əmək haqları ilə bağlı öz internet saytlarında açıq informasiya təqdim etsələr daha yaxşı olardı: ”Kim istəsə, parlamentin saytına daxil olar və sədr başqa olmaqla hansı deputatın nə qədər maaş, ezamiyyə xərcləri və digər əlavələr aldığını görər. Bu həm də informasiya əldə etmək haqqında konstitusiyamızın tələbidir və hər vətəndaşın haqqıdır. Lakin Milli Məclis açıq məlumat təqdim etmir. Nəticədə cəmiyyətdə dedi-qodu və şayiələr yayılır. Söz-söhbət yayılandan sonra iddiaları təkzib etməyin nə mənası var?! Parlament əvvəlcə özü şəffaflığı təmin etməlidir”.



**Qanunverici orqanda oturanların əksəriyyəti Azərbaycanın ictimai-siyasi rəyinə dəxli olmayan təsadüfi adamlardır, ona görə cəmiyyətdən narazılıq var**

**A.Həsrətin qənaətincə, ümumiyyətlə, Azərbaycan cəmiyyətinin Milli Məclisin tərkibinə çox ciddi reaksiyası və narazılıq var:** ”İnsanlar parlamentin mövcud tərkibini həzm edə bilmir. Qanunverici orqanda oturanların əksəriyyəti Azərbaycanın ictimai-siyasi rəyinə dəxli olmayan təsadüfi adamlardır. Tariximizin ən mühüm hadisəsi olan 44 günlük Vətən müharibəsində belə səssizliyini qoruyanlar oldu. Bir dəfə olsun ağızlarını açmadılar. Hansısa xarici ölkənin parlamentinə, beynəlxalq təşkilatlara məktub yazdıqlarını görmədik. Belə adamların cəmiyyəti qıcıqlandırması normaldır. Deputatların sosial media hesablarına, feysbuk profillərinə nəzər yetirsək, görərik ki, dörd-beş parlament üzvünü çıxmaqla yerdə qalanlar görünmürlər. Deputat olduqları hiss olunmur”.

**Jurnalist vurğulayıb ki, əksər parlamentarinin ”fəaliyyəti” Vətən müharibəsində özünü daha aydın büruzə verdi:** ”Müharibə dövründə və sonrakı dönəmdə ölkəmizin müxtəlif bölgələrinə, şəhər və kəndlərimizə şəhidlərimiz gətirildi: ”Elə deputat var ki, indiyə kimi bir şəhid ailəsinin qapısını açmayıb, hansısa qazinin evini ziyarət etməyib. Uzaqdan zəng belə etməyiblər. Bu cür deputatlara xalq arasında rəğbət və sayğı ola bilməz. Ona görə də parlament üzvləri ilə bağlı kiçik məsələ cəmiyyətdə neqativ tərəfdən yozulur və günlərlə müzakirə olunur. Düşünürəm ki, cənab Prezidentin icra strukturlarında həyata keçirdiyi sürətli islahatlar parlamentə də sirayət etməlidir. Çünki indiki tərkibin böyük hissəsi müharibə günlərində heç nəyə yaramadıqlarını aydın göstərdilər”.

**İsmayıl Qocayev**

# Qarabağ savaşında düşmənin saxta xəbərləri puç oldu

## Melik Yiğitel: “Kremlin fəaliyyətini tarazlaşdıracaq tərəf Türkiyədir. Ankara tarazlığı qorumağa çalışır və qoruyacaq da”



**Müharibələrdə güclü tərəfin qalib gəldiyi artıq faktdır. Biz bunu tarixin ən müxtəlif dövrlərində görmüşük. Ancaq çox zaman bir məsələ - ”altıncı iri dövlət”in, yəni medianın rolu unudulur. Proseslərin inkişaf etməsində ictimai rəyin yaradılması mühüm məqamdır. İctimai rəyi yaradanlar isə məhz jurnalistlərdir.**

Deməli, biz həm də fədakar KİV işçilərimizin sayəsində bu qələbəni qazandıq. İnformasiya savaşında da qardaş Türkiyə ilə birgə mübarizə aparmağımız xüsusilə sevindirici haldır. Onlar bizi bu istiqamətdə də tək qoymadılar. Bir də baxdıq ki, Türkiyənin ayrı-ayrı müxbirləri Gəncədə, Tərtərdədirlər.

*Artıq müharibə bitib. Qazandığımız qələbədə jurnalistlərin, informasiya savaşının rolunu qiymətləndirmək üçün türkiyəli jurnalist və siyasi analitik Melik Yiğitellə söhbətləşdik. O, ”Şərq”in suallarını ətraflı cavablandırdı.*

**- Azərbaycanın tarixi zəfərini necə qiymətləndirirsiniz?**

- Azərbaycanın qələbəsinin mahiyyəti təkcə işğal altındakı torpaqların azad edilməsi ilə məhdudlaşmır. Bu zəfərin təməlində Azərbaycanın iqtisadi və hərbi gücü ilə birlikdə, həm də Türkiyə ilə davam etdirdiyi ”Bir millət, iki dövlət” prinsipi dayanır. Sözügedən uğur Azərbaycan silahlı qüvvələrinin zamanın tələbinə uyğun, hətta texnoloji cəhətdən dünya ölkələri ilə rəqabətə girə biləcək səviyyədə inkişafının təzahürüdür. Azərbaycan təkcə Ermənistanı deyil, eləcə də, hər fürsətdə onu dəstəkləyən Fransanı, Rusiyanı, ABŞ-ı məğlub etdi. Azərbaycanın qələbəsindən dərhal sonra Rusiya Prezidenti Vladimir Putinin cənab İlham Əliyevə zəngi və sülhə vasitəçiliyi qələbənizi qəbul etməsinin göstəricisidir. Azərbaycan Ermənistana yaxşı bir dərs keçdi. Eyni zamanda düşmənə qorxu, dostlara güvən verildi və rəsmi Bakının gücü bütün dünyaya nümayiş edildi.

**- Bu qələbədə jurnalistlərin rolu nədən ibarət idi?**

- Media işçilərinin vəzifəsi prosesləri olduğu kimi xalqa çatdırmaqdır. Azərbaycan və Türkiyədəki jurnalistlər vəzifələrinin öhdəsindən layiqincə gəldilər. Beləliklə, Ermənistanın qara piarı iflasa uğradı. İkinci bir tərəfdən isə beynəlxalq ictimaiyyətin düzgün bilgilər almasını bacardıq. Xüsusilə azərbaycanlı jurnalistlərin hadisə yerlərindən verdikləri informasiyalar bu istiqamətdə müstəsna əhəmiyyətli idi.

**- Bildiyiniz kimi, həmin müddətdə türk jurnalistlər də Azərbaycanda oldular. Bunun əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək məqsədilə başlatdığı əks-hücum Türkiyədə də həyəcan yaratdı. Əlbəttə, jurnalistlərimiz də məsələyə laqeyd yanaşmadılar. Onlar türk ictimaiyyətini proseslərdən anbaan xəbərdar etməyə çalışdılar. Türk jurnalistlərin Azərbaycandan verdiyi məlumatlar, hazırladıqları reportajlar dəqiqəbədəqiqə izlənilirdi. İctimaiyyət həmin xəbərləri maraqla, səbirsizliklə gözləyirdi. Azərbaycana dair xəbərlər ən çox oxunan, baxılan materiallar idi. Türk jurnalistlər də dəqiq və qərəzsiz məlumat verməkdən ötrü əllərindən gələni etdilər. Beləliklə, bir çoxlarında Ermənistanla bağlı yaranmış və ya yaradılmış müsbət təsəvvür dəyişildi.

**- Artıq iki ölkənin ortaq media platformasının yaradılması müzakirə edilir. Belə bir layihə bizə nə vəd edir?**

- Əlbəttə, bu çox vacibdir. Hər şeydən əvvəl alınan informasiyalar bölüşüləcək. Və ictimaiyyət xarici təsirlərdən, dezinformasiyalardan uzaq bir formada, daha uğurlu xəbərlə təmin ediləcək. Eyni zamanda ABŞ və Rusiya başda olmaqla bütün dünyaya qarşı növbəti qardaşlıq nümunəsi ortaya qoyulacaq. Bu ortaqlıq dünya ictimaiyyətini bilgiləndirmə, düzgün istiqamətləndirmə və lobbiçilik baxımından mühüm əhəmiyyətə malikdir.

**- Dediyiniz kimi, müharibə dövründə Ermənistan ardarda dezinformasiyalar yayırdı. Belə informasiya təxribatlarının qarşısı necə alınmalıdır?**

- Azərbaycan və Türkiyənin bunu necə etmək lazım olduğunu Qarabağ müharibəsi zamanı göstərdi. İki ölkə rəsmiləri və KİV-i dezinformasiyalara qarşı dərhal reaksiya göstərərək doğru xəbəri doğru zamanda auditoriyaya çatdırmağı bacardı. Ancaq türkcə yox, bütün dillərdə həyata keçirilən yayımlarla düşmənin saxta xəbərləri puç oldu. Yenə rastlaşa biləcəyimiz informasiya təxribatları ilə mübarizə üçün çəld və koordinasiyalı davranmaq lazımdır.

**- Sizcə, yeni müharibə başlaya bilər?**

- Ermənistanın buna cəsarət edəcəyini düşünmürəm. Çünki ağır məğlubiyyətə uğradı. İkinci bir tərəfdən, sabitliyin qorunmasında Türkiyə və Rusiya cavabdehlik daşıyır. Ermənistan bunu gözardı eləməz. Əgər edərsə, on illər boyu özünə gələ bilməyəcək faciəyə məruz qalar. Və ”beli bir daha dikilməmək şərti ilə əyilər”.

**- Qarabağdakı rus sülhməramlılarının fəaliyyəti hamımıza məlumdur. Beş il belə davam edəcək?**

- Bu məsələdə də Türkiyə və Azərbaycanın iş birliyi çox vacibdir. Amma region ölkələrinin sülhə dəstək verməri də şərtdir. Rusiyanın sabitliyi qorumaq istiqamətindəki qətiyyəti, o cümlədən Ermənistana təzyiqi mühüm faktdır. Şübhəsiz ki, Kremlin fəaliyyətini tarazlaşdıracaq tərəf Türkiyədir. Ankara tarazlığı qorumağa çalışır və qoruyacaq da. Rəsmi Moskva Azərbaycana laqeyd yanaşa bilməyəcəyini anladı. Həmçinin Rusiya xüsusilə regional sabitliyi qorumaq naminə münasibətlərin həyati əhəmiyyət daşıdığının fərqindədir.

**- Proseslərin bundan sonrakı inkişafını necə görürsünüz?**

- Ermənistan zaman-zaman atəşkəsi pozmağa cəhd edə bilər. Lakin Türkiyə və Rusiyanın sülhü qorumaq üçün atdığı addımlar, habelə birgə Monitorinq Mərkəzinin fəaliyyəti bunun qarşısını alacaq. Gələcək aylarda Ermənistan müharibənin onu düçar etdiyi siyasi və iqtisadi böhranın fərqində olaraq daha ağıllı addımlar atacaq. Daha doğrusu, buna məcbur qalacaq. Azərbaycanla savaşın, ya da pis münasibətlərin Ermənistan üçün faciə olduğu aydın göründü. Məncə, bunu təkcə Ermənistan hərbi-siyasi hakimiyyəti deyil, həm də onu ”cəsarətləndirənlər” anladılar.

**Kənan Novruzov**

---

# “Bir qrup separatçı, “5-ci kalon” prosesləri tormozlamağa çalışır”

## Rauf Zeyni: “İslahatçılar dəstəsilə sabotajçılar arasında neçə ildir ki, böyük mübarizə gedir”

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.

İclasa Qərargahın və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edib. S.Nuriyev ölkə başçısının verdiyi tapşırıqlar və müəyyənləşdirdiyi strateji istiqamətlərə uyğun həyata keçirilən işlər haqqında iclas iştirakçılarına məlumat verib. O qeyd edib ki, milli əhəmiyyət kəsb edən bərpa və yenidənqurma işlərinin dinamik və keyfiyyətli icra edilməsi, habelə bu proseslərdə ən qabaqcıl standart və texnologiyaların səmərəli tətbiqi ölkəmizin qarşısında duran əsas vəzifələrdən biridir.

S.Nuriyev cənab prezidentin tapşırıqları əsasında müvafiq qurumlar tərəfindən həyata keçirilən işlərin əlaqələndirilmiş və ardıcıllığa uyğun olaraq mərhələli şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb. İclasda Qərargah tərəfindən hazırlanmış Strateji Fəaliyyət Planı və Tədbirlər Planı əsasında nazirlik və dövlət təşkilatları tərəfindən vaxt qrafikinə uyğun olaraq görülməli işlər nəzərdən keçirilib.

**Toplantının əhəmiyyətinə dair fikirlərini ”Şərq”lə bölüşən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni cənab Prezidentin ölkəmizdə islahatların ciddi səviyyədə aparılmasında maraqlı olduğunu söyləyib:** ”Dövlət başçısı bununla əlaqədar olaraq kəskin tənqidlərini də bildirib. Prezidentimiz qeyd edib ki, Azərbaycandan idarəetmənin müasirləşdirilməsi, köhnə üsullardan imtina edilməsi istiqamətində istənilən addımlar atılacaq. Buna görə də islahatçılar dəstəsilə sabotajçılar arasında neçə ildir ki, böyük mübarizə gedir. Biz də MQF, həmçinin vətəndaş cəmiyyəti olaraq Prezidentin islahatlarını dəstəkləyir və bu islahatlarda maraqlıyıq. Çünki ölkəmizin gələcəyi məhz həmin islahatlardan asılıdır. Lakin bir qrup separatçılar, ”5-ci kalon” bu prosesləri tormozlamağa çalışır. Ona görə də Samir müəllimin rəhbərliyi ilə keçirilən iclas çox vacib və əhəmiyyətlidir”.



**R.Zeyni belə iclasların teztez keçirilməsini təklif edib:** ”Çünki cənab Prezidentin tapşırıqlarına əsasən görüləcək işlər çoxdur. Məsələn, vətəndaş cəmiyyəti olaraq Prezidentin ictimai nəzarətin gücləndirilməsi ilə bağlı çağırışlarında son dərəcə maraqlıyıq. Ona görə də gözləyirik ki, President Administrasiyanın rəhbərliyi və Prezidentin köməkçisi Hikmət Hacıyevlə görüşək. İmkan olarsa gələcəkdə ölkə başçısı ilə də görüşək və vətəndaşları maraqlandıran, cəmiyyəti narahat edən məsələlərlə bağlı vəziyyətin yaxşılaşdırılması üçün hər kəs üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirsin.

İllərdir ki, bu sahədə töhfələrimizi veririk və hər zaman ölkə başçısı vətəndaş cəmiyyətini ictimai nəzarətin gücləndirilməsinə çağıranda böyük bir məsuliyyət hiss edir, həmçinin çıxış yolları axtarırıq. Cənab Prezidentə təkliflərimizi də göndərmişik və xahiş etmişik ki, vətəndaş cəmiyyətinin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı işlər görülsün”.

**MQF Prezidentin ölkəmizdə məmur özbaşınalığına son qoyulması üçün PA-nın rəhbərliyi ilə keçirilən iclasın böyük əhəmiyyəti olduğunu düşünür:**

”Cənab Prezidentin tapşırıqları vaxtında, operativ və keyfiyyətli şəkildə gerçəkləşməlidir. Bu baxımdan belə iclasların keçirilməsi xüsusi əhəmiyyət kəsb edir ki, hər kəs üzərinə düşəni yerinə yetirsin”.

**Yeganə Bayramova**

# Hərbi doktrinanı dəyişdirmək erkəndir



## “Müharibə bitib və biz Ermənistanla dövlət sərhədlərimizin formalaşmasının aktiv fazasındayıq. Öncə bu proseslər başa çatmalıdır”

**Azərbaycanın Hərbi Doktrinasının dəyişdirilməsi məsələsi yenidən gündəmə gəlib. Parlamentin ötən iclasında çıxış edən millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin sədri Zahid Oruc hərbi doktrinanın 11 il əvvəl Ermənistanın Azərbaycan ərazilərini işğal faktı üzərində tərtib olunduğunu deyib.**

Parlamentari vurğulayıb ki, 44 günlük Vətən müharibəsindən sonra dövlətimizin daxildə, regionda və dünyada yeni güc amilinə çevrildiyi bir dövrdə hərbi doktrinanın yenidən hazırlanmasına ehtiyac yaranıb: ”İşğaldan azad olunan ərazilərimiz ölkəmizin istər sərhəd, istərsə də müdafiə qabiliyyətini artırıb, geosiyasi çəkisini və mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Təkcə o faktı nəzərə alaq ki, Kəlbəcərdən Zəngilana qədər olan sərhəd xətti 600 km-dən artıqdır və hərbi birləşmələrimizin tam nəzarəti altında olması yeni coğrafi-hərbi yüksəkliklərin, fərqli geosiyasi üstünlüklərin qazanılması deməkdir. İndi ”hərbi doktrina”mızda yeni hərbi hədəflər və mənafelər, strateji planlar, qazandığımız yeni müttəfiqlər fonunda hərbi əməkdaşlığ siyasətinə yenidən baxış tələb olunur. Biz Vətən müharibəsinin gedişində ölkəmizə açıq dəstək verən dövlətləri də gördük, ”ikinci cəbhə” açmaq üçün gözləmə rejimində olanları da”. Z.Oruc yeni doktrina çərçivəsində Azərbaycanda hərbi bazaların yerləşdirilməsinin mümkünlüyünü də deyib. Qeyd edək ki, Azərbaycanın Hərbi Doktrinası 2010-cu ilin 8 iyununda qəbul edilib. Məsələ ondadır ki, çox zaman siyasətçilərimiz hərbi baza mövzusundan danışarkən bunun mümkünsüzlüyünü Qoşulmama Hərəkatına üzvlüklə əlaqələndirirlər. Halbuki, 2010-cu ildə təsdiqlənən doktrinaya görə, hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi təqdirdə, Azərbaycan öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə müvəqqəti icazə vermək hüququnu özündə saxlayır. Hesab edilir ki, postmüharibə dövründə də Azərbaycan üçün risklər qalmaqdadır. Ona görə hərbi doktrinaya bir sıra dəyişikliklər edilməsi mümkündür.

**“Proseslərin sonunu gözləmək və real nəticələr əldə olunduqdan sonra hərbi sənədə baxmaq daha məqsədəuyğundur"**

**Hərbi ekspert, ehtiyatda olan zabit Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, hərbi doktrina ölkənin hərbi sahədə fəaliyyətini tənzimləyən əsas sənədlərdən biridir.** Ekspert regionda hərbi-siyasi vəziyyətin dəyişməsi ilə bağlı doktrinaya yenidən göz gəzdirilə biləcəyini istisna etməyib. Lakin vurğulayıb ki, belə mühüm sənədləri üç-beş gün içində dəyişdirmək olmaz: ”Vətən müharibəsində qələbəmizdən sonra regionda yeni vəziyyət formalaşıb. Bu da müdafiə və hücum sahəsində gələcək planlarımıza yenidən baxılmasını zəruri edir. Lakin hərbi doktrinanı tez-tələsik dəyişdirmək olmaz. Müharibə bitib və biz Ermənistanla dövlət sərhədlərimizin formalaşmasının aktiv fazasındayıq. Öncə bu proseslər başa çatmalıdır. Ermənistanla yekun və konkret sülh müqaviləsi imzalandıqdan və düşmən ölkə sərhədlərimizi rəsmən tanıdıqdan sonra Azərbaycan hərbi doktrinasında dəyişikliyə gedə bilər. Tələsməyə lüzum görmürəm. Hərbi doktrinalar tez-tez redaktə ediləbiləcək sənəd deyil. Proseslərin sonunu gözləmək və real nəticələr əldə olunduqdan sonra hərbi sənədə baxmaq daha məqsədəuyğundur”.

**İsmayıl Qocayev**



# 65 yaşdan yuxarı müəllimlər əyani dərslərə cəlb edilməyəcək

**Azyşalı uşağı olan gənc müəllimlər şikayət edirlər ki, əgər bağçalar bağlıdırsa, biz əyani dərslərdə necə iştirak edək. Lakin bu, təhsil sisteminin problemi deyil, ailədaxili problemdir. Bunun həll yolları da ailə daxilində tapılmalıdır.**

Trend-in məlumatına görə, bunu Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu deyib.

Onun sözlərinə görə, hazırkı epidemioloji qaydalara əsasən, yalnız 65 yaşdan yuxarı olan müəllimlərin əyani dərslərə cəlb edilməməsi nəzərdə tutulub:

**”Hazırda epidemioloji vəziyyəti nəzərə almaqla, əyani dərslərə tezliklə qayıtmayılıq. Çünki bu çoxluğun tələbidir. Burada təhsilverənlərin mənafeyi əsas götürülür”.**

# Ağdamda partlayış baş verib

## 1 hərbçimiz həlak olub, 2 nəfər yaralanıb

**Dünən günorta saatlarında Ağdam rayonu ərazisində partlayış baş verib. Hadisə nəticəsində əsgər Zeynalov Qubad İslam oğlu həlak olub.**

Bu barədə məlumatı Müdafiə Nazirliyi yayıb.

”Digər iki hərbi qulluqçumuz Babayev Nemət Novruz oğlu və Məlikməmmədov Balaqardaş Mübariz oğlumüxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Hazırda yaralılar həkim nəzarətindədir, həyatları üçün təhlükə yoxdur. Hadisə ilə bağlı cinayət işi açılıb, araşdırma aparılır. Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun yaxınlarına dərin hüznlə başsağlığı verir!” - məlumatda belə deyilir.

# Gələcək nəsil qrip viruslarından əziyyət çəkməyəcək



## Rusiyalı virusoloqların təxminləri doğrudur

**Hər zərərdə bir xeyir var, deyimi, koronavirusda da keçərli oldu. Mütəxəssislər hesab edir ki, koronavirus qrip virusunu aradan çıxaracaq.**

Rusiyalı virusoloq Vladislav Jemçuqov bildirib ki, koronavirus pandemiyası səbəbiylə tətbiq edilən karantin qaydaları - maska taxmaq, məsafə saxlamaq, təmizliyə riayət etmək və sair karantin tədbirləri sağlamlığa heç bir şəkildə zərər verməyəcək, əksinə, qripə qarşı kollektiv immunitetin yaranmasına kömək edəcək.

Virusoloqun sözlərinə görə, pandemiya dövründə tətbiq edilən məhdudlaşdırıcı tədbirlər hər il payız və qış aylarında artımı müşahidə edilən kəskin respirator xəstəliklərə yoluxma sayını demək olar ki, sıfıra endirib:

**”Mövcud məhdudlaşdırıcı tədbirlər ona gətirdi ki, hazırda soyuqdəymə və kəskin respirator xəstəliklərdən əziyyət çəkənlər demək olar ki, yox dərəcəsindədir”.**

Bundan əvvəlsə bir sıra alimlər qış aylarında ciddi qrip xəstəliklərinin baş verməsi barədə məlumat vermişdilər. Onların fikrincə, koronavirusla mübarizədə məhdudlaşdırıcı tədbirlərə görə digər tənəffüs xəstəliklərinə, xüsusən də qripə qarşı cəmiyyətin immuniteti zəifləyib.

Lakin Jemçuqovun sözlərinə görə, gələn il bu xəstəliyin epidemiyası üçün heç bir təhlükə yoxdur. O, mütəxəssislərin vəziyyəti nəzarətdə saxladıqlarını və ştamlar olarsa, növbəti qış peyvəndlərinin uyğun olub-olmaması barədə mütləq məlumat veriləcəyini vurğulayıb.

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında rusiyalı virusoloqun təxmininin düzgün olduğunu dedi:**

- Tibdə ”populyasiya immuniteti” anlayışı var. Yəni kütləvi immunitetin yaranması. Kütləvi immunitet yaranırsa, heç bir virus artıq qorxulu deyil. Koronavirusa qarşı görülən tədbirlər qrip və paraqrip kimi tanıdığımız viruslara qarşı da effektlidir və immunitet yaranmasına kömək edir. Sentyabr-oktyabr aylarında Azərbaycanda qrip əleyhinə vaksinasiya aparıldı. Həkimlər, müəllimlər arasında. Bu vaksinasiyanın, eləcə onunla yanaşı görülən tədbirlərin koronavirus infeksiyası ilə mübarizədə böyük rolu oldu. İnfeksiyanın yayılmasında ağırlaşmaların qarşısını aldı. Biz indi koronavirus vaksinasiyasından da eyni müsbət nəticəni gözləyirik. Vaksinasiya ona görə vacibdir ki, virusa qarşı orqanizmdə anti-tellər yaranır. Qrip əleyhinə peyvənd olunmuş şəxs, üstəlik koronavirus əleyhinə də peyvənd edilirsə, orqanizmdə yaranmış anti-tellərin üzərinə biri də əlavə olunur. Bu da orqanizmin müqavimət gücünü artırır. Bu mənada qarşıdakı illərdə biz kəskin respirator xəstəliklər, qrip viruslarının yayıldığını görməyəcəyik. Olacaq, amma əvvəlki miqyasda deyil. Xüsusən, gənclər və uşaqlar - gələcək nəsildə immunitet yaranacaq və möhkəmlənəcək. Gələcək nəsil qrip viruslarından əziyyət çəkməyəcək.

**Məlahət Rzayeva**

# Hilallı, ulduzlu bayrağa döndü

## Şuşa fatehini düşmən ürəyindən nişan alıb



**“Şiddətli əlbəyaxa döyüşlər zamanı dostunun düşmən tərəfindən vurulduğunu görərkən irəli atılıb”**

**“Anama deyin, ağlamasın” deyərək qəhrəmanlıq yoluna çıxan Səbuhi Həsənquliyev 44 günlük Vətən savaşı boyunca əksər döyüşlərdə iştirak edib şücaət göstərib.**

**Şuşa şəhəri uğrunda gedən son döyüşü zamanı şəhid olacağını əvvəlcədən hiss edən 18 yaşlı igid sanki toya-bayrama gedirmiş kimi qoluna qırmızı parça bağlayaraq ”Vətən uğrunda qurban gedirəm” deyib. O, bu döyüşdə bir neçə düşməni məhv etdikdən sonra ürəyindən vurularaq qəhrəmancasına həlak olub.**

Səbuhi Əlxan oğlu Həsənquliyev 2002-ci il, aprel ayının 11-i Ucar rayonunun Boyat kəndində anadan olub.

Çətinliklə dünyaya gələn körpənin adını balaca əmisinin istəyi ilə Səbuhi qoyublar.

Həmin əmisinin evində dünyaya göz açan Səbuhinin uşaqlığı da elə ata babasının yurdunda - Boyat kəndində keçirib.

O, kiçik yaşlarında ömrünü zamana uyğun olaraq müəyyən çətinlik və məhrumiyyətlərlə keçirir...

Atasının işinə görə ailəsi ilə Sumqayıt şəhərinə köçən Səbuhi 2008-ci ilə elə burada da birinci sinifə gedir. 2017-ci ildə isə təhsil aldığı Cəbrayıl rayon 5 nömrəli məktəbin 9-cu sinfini bitirərək peşə liseyinə daxil olur. 2020-ci ildə buranı da uğurla başa vuran bu yeniyetmə gənc həmin ilin Aprel çağırışında Azərbaycan Respublikasının ordu sıralarına daxil olur...





Müharibə başlayanda o, sadəcə 5 ayın əsgəri idi. İkinci Qarabağ savaşı başlayandan sonra anası Maisə xanımla ilk dəfə danışarkən ”ana, oğlun erməni öldürüb” deyərək qürurlanırdı.

Yaralı və şəhid dostlarının birini də döyüş meydanında yalnız buraxmayan qəhrəmanımız Şuşada şiddətli əlbəyaxa döyüşlər zamanı dostunun düşmən tərəfindən vurulduğunu görərkən yenə irəli atılıb. Onu güllə yağışının altından çıxarmağa çalışan anda namərd güllesi onu yerə yıxıb. Döyüş yoldaşları ona çatanda Səbuhi artıq çiynindən, yaxın məsafədən ürəyindən və boğazından vurularaq şəhid olmuşdu...

Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyevin sərəncamına əsasən, Səbuhi Əlxan oğlu Həsənquliyev Vətən savaşında göstərdiyi igidlik və rəşadətə görə ölümündən sonra ”Vətən uğrunda” medalı, ”Füzulinin azad olunmasına görə”, ”Cəbrayılın azad olunmasına görə” , ”Qubadlının azad olunmasına görə” və Şuşa fatehlərindən biri olduğu üçün ”Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Ölümündən sonra Sumqayıt şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılan Vətən oğlu arxasından valideyni üçün kədər və eyni zamanda qürur, qohumları üçün fəxr, gənc nəsil üçün igidlik nümunəsi və ömür boyu danışılacaq qəhrəmanlıq salnaməsini yazaraq qeyrəti uğrunda vuruşduğu torpağa qarışaraq and yeri oldu.

Şəhadətindən sonra Səbuhinin adının yaşaması üçün doğulduğu Boyat kəndinin girişində lövhə ucaldılıb, adına şeir həsr edilib. Həmin şeiri sizə təqdim edirik:

**S-ən ki, doymamışdın dünyadan hələ,**
**Ə-n gözəl zamanda torpağa döndün.**
**B-ilirəm, ən ali zirvələr üçün,**
**U-lu bir üç rəngli bayraq eşqinə**
**H-ilallı, ulduzlu bayrağa döndün.**
**İ-ndi ürəklərdə adın var sənin.**

**Nə zaman böyüyüb qəhrəman oldun?**
**Şuşanı qurtarıb arzuna doldun.**
**Vətənçün döyüşüb gül kimi soldun.**
**Məzarın zirvədə qazılıb sənin.**

**Qardaşın Ağarza dözmür bu dərdə,**
**Səndən yaza-yaza ölür kədərdə.**
**Demək uca Allah yazan qədərdə**
**Şəhidlik məqamın yazılıb sənin.**

**Ağarza Elçinoğlu**



## Metroda gediş qiyməti artacaqmı?

### Rəhbərlikdən hələ ki, bir səs yoxdur

**“Bakı Metropoliteni” QSC-nin gediş haqlarının artırılması ilə bağlı Tarif Şurasına müraciəti barədə məlumatım yoxdur”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında qurumun mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov bildirib. O deyib ki, sualı birbaşa rəhbərliyə ünvanlaya bilərsiz: ”Hazırda məzuniyyətdə olduğum üçün hər şeylə maraqlana bilmirəm. Zəhmət olmasa, sualı rəsmən ünvanlayın, müvafiq cavabı bilmək üçün Bakı Metropoliteninin rəsmi saytına müraciət edin”.

**Aygün**

## 152 nəfər yoluxub, 3 nəfər vəfat edib

### Azərbaycanda daha 263 nəfər koronavirusdan sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 152 yeni yoluxma faktı qeydə alınıb, 263 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 230 769 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 224 431 nəfər müalicə olunaraq sağalıb, 3 148 nəfər vəfat edib, aktiv xəstə sayı 3 190 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 640, ötən müddət ərzində isə ümumilikdə 2 433 585 test aparılıb.*



# “Kaş tez yaralanmazdım...”

## Qazi Amil Əliyev: “Hazırda bir gözümün görməyinə rəğmən, yenə də Vətənimi yağı düşməndən qorumağa hazıram”

**Deyirlər, candan şirin şey yoxdur. Amma lazım gələndə ondan keçmək də mümkündür. Məsələn, söhbət Vətənin taleyindən gedəndə oğullarımız toya-bayrama yollanırmışcasına ön cəbhənin yolunu tuta bilərlər.**

Tutdular da. Biz bunu bir neçə ay əvvəlki - İkinci Qarabağ müharibəsində gördük. Yüzlərlə mərd oğul torpağa sipər oldu. 1998-ci il təvəllüdlü Amil Əliyev də belə qəhrəmanlardandır.

O, Vətən müharibəsindəki iştirakına dair ”Şərq”ə açıqlama verib: ”2019-cu ildə hərbi xidmətə çağırılmışam. Üç ay Goranboyda ”gənc əsgər” kimi xidmət etdikdən sonra Tərtərə göndərilmişəm. Vətənin ərazi bütövlüyü uğrunda gedən müharibədə sıravi əsgər kimi Ağdərə istiqamətində döyüşmüşəm.

Baş atıcı idim. Sentyabrın 29-da mina partlaması nəticəsində yaralandım. Beləliklə, görmə qabiliyyətimi itirdim. Ruh yüksəkliyimiz çox yüksək idi.



Bəzi yoldaşlarımız şəhadətə qovuşdular. Bəziləri isə mənim kimi yaralandılar. Nəzərinizə çatdırım ki, komandirlərimin köməyi ilə həyatda qaldım. İlk tibbi yardım göstəriləndən sonra Bakıdakı Mərkəzi Hospitala gətirildim və gözlərimdən əməliyyat olundum.

Kaş, belə tez yaralanmaz və növbəti döyüşlərdə də iştirak edəydim. Təəssüfləndiyim yeganə məqam budur. Hazırda bir gözümün görməyinə rəğmən, yenə də Vətənimi yağı düşməndən qorumağa hazıram.

**Kənan**

# “Navalnı qalmaqalı” Rusiya üçün çətin dövrün başlanğıcıdır

## “ABŞ və Qərb Putinsiz Rusiya modelinə nail olmaq üçün əlindən gələn hər şeyi edəcək”



Moskvanın Simonovski məhkəməsi müxalif bloqer Aleksey Navalnı barəsində yeni qərar qəbul edib. Rusiyaya geri dönərkən hava limanında saxlanılan və barəsində şərti cəza verilən Navalnı 3 il 5 ay müddətinə azadlıqdan məhrum olunub. Hakim Natalya Repnikova bildirib ki, müttəhimin ev dustaqlığında keçirdiyi 12 ay təyin edilmiş cəzadan çıxılacaq.

Qeyd edək ki, Aleksey Navalnının qardaşı Oleq Navalnı da 3,5 il müddətinə azadlıqdan məhrum edilib. Navalnının ailəsi 2008-ci ildən 2013-cü ilə qədər fırıldaqçılıq yolu ilə külli miqdarda pul mənimsəməkdə və qarətdə ittiham olunurdu.

Bəzi mütəxəssislərin fikrincə, Navalnının həbsi ölkədə onsuz da gərgin olan vəziyyəti bir qədər də gərginləşdirə bilər. Maraqlıdır, müxalif siyasətçinin azadlıqdan məhrum edilməsi Rusiyaya nə vəd edəcək?

Sualımızı cavablandıran siyasi analitik Elçin Xalidbəyli ”Şərq”ə bildirib ki, ”Navalnı qalmaqalı” Rusiya üçün müəyyən mənada, başağrısıdır: ”Onun həbsi beynəlxalq səviyyədə Rusiyaya qarşı qınaqların artmasına səbəb olub. Böyük ehtimalla bu qınaq kampaniyası yaxın vaxtlarda daha da artacaq. Çünki qalmaqaldan faydalanmaq istəyən beynəlxalq güclər kifayət qədərdir. Xüsusilə də, ABŞ və Böyük Britaniya ”Navalnı qalmaqalı”ndan Rusiyanın beynəlxalq mövqelərini daha da zəiflətmək üçün istifadə etməyə çalışır.

Əslində, Aleksey Navalnı Rusiyaya dönərkən Kremlə beynəlxalq təzyiqlərin başlanacağı məlum idi. Çünki o, Rusiyaya dönən kimi həbs ediləcəyini bilməmiş deyildi. Hər halda, onun haqqında cinayət işinin başlandığını özü də bilirdi.

Ancaq buna baxmayaraq, geri dönməkdən qətiyyən çəkinmədi. Görünür, ona dönmək təlimatı və beynəlxalq müdafiə təminatı verilməsi barədə iddialar o qədər də əsassız deyil”.

Analitik söyləyib ki, Navalnının Rusiyaya dönüşünün məhz Bayden administrasiyasının öz səlahiyyətlərinin icrasına başlaması ilə eyni vaxta təsadüf etməsi maraqlı məqamdır: ”Bunun bir təsadüf olduğunu düşünmək sadəlövhlük olardı. Ola bilsin ki, Bayden administrasiyasının fəaliyyətə başlaması ilə Rusiyanın sıxışdırılması prosesinə start verilməsi barədə iddialar bundan sonra gündəmdə əsas mövzulardan olacaq. Və bu prosesdə ”Navalnı qalmaqalı” əsas faktorlardan birinə çevriləcək”.

**E.Xalidbəylinin qənaətincə, ”Navalnı qalmaqalı” ilə Rusiyada Putin hakimiyyətinin çıxılmaz vəziyyətə düşə biləcəyini iddia etmək hələlik çox tezdir:** ”Ancaq bu qalmaqalın hər halda, ciddi problemlər yarada biləcəyi də qətiyyən istisna deyil. Onu da qeyd etmək lazımdır ki, son vaxtlar Rusiyada Putin dövrünün sona çatmaqda olması barədə mülahizələr artmağa başlayıb. Xüsusilə də, Böyük Britaniya mətbuatı bu barədə müxtəlif senarilərə böyük həvəslə yer ayırır.

Halbuki, belə ehtimallar Rusiya siyasi dairələrində də müzakirə edilməyə başlayıb. Buna misal olaraq, Kremlə yaxın politoloq Sergey Markovun bir müddət gündəmə gətirdiyi sensasiyalı iddiaları göstərmək olar. O, Qərbdə Prezident Vladimir Putinin hakimiyyətdən kənarlaşdırılması üçün müxtəlif planlar qurulduğunu vurğulamışdı.

Onun fikrincə, ABŞ və Qərb Putinsiz Rusiya modelinə nail olmaq üçün əlindən gələn hər şeyi edəcək. Eyni zamanda, Sergey Markov qeyd etmişdi ki, ABŞ və Qərbin Prezident V.Putinin hakimiyyətdən kənarlaşdırılmasına yönəlik cəhdləri sentyabr ayında özünün kuliminasiya nöqtəsinə çata bilər.

Göründüyü kimi, Rusiyada da belə bir təhlükənin real olduğuna ciddi yanaşanlar mövcuddur. Amma bütün bu iddiaların reallığa çevrilib-çevrilməyəcəyi hələlik müəyyən suallar doğurur.

Halbuki, Rusiya Xarici İşlər Nazirliyinin ”ABŞ-dan daxili işlərimizə qarışmamağı tələb edirik” məzmunlu bəyanatı vəziyyətin ciddi olduğunu göstərir. Xüsusilə də, ABŞ-ın nəzarətində olan sosial şəbəkə platformalarının ”Navalnı qalmaqalında”, eləcə də, kütləvi iğtişaşların təşkilində önəmli rol oynaması Rusiya üçün çətin dövrün başlandığını düşünməyə əsas verir.

Bütün bunları nəzərə aldıqda, A.Navalnı həbsdə qaldıqca, ABŞ və Qərbin əlində təzyiq faktoruna çevrilə biləcəyi qətiyyən istisna deyil. Bu həbsin Rusiyaya hansısa faydalarından danışmaq isə hazırda bir qədər çətindir.

Ona görə də, Rusiyada növbəti təlatümlü dövrün artıq başlandığını da düşünmək olar. Rusiyanın daxili dinamiklərinin buna necə reaksiya verib, müqavimət göstərməyə çalışacağını isə ən yaxın vaxtlarda görəcəyik”.

**Yeganə Bayramova**

# AzTV-nin aparıcısı polisdən şikayətçidir

## Həmin polis isə Əməkdar artist Babək Niftəliyevin qardaşıdır



**AzTV-nin aparıcısı Aydan Axundova tanınmış xanəndə, Əməkdar artist Babək Niftəliyevin polis qardaşından şikayətlənib.**

**”Şərq” xəbər verir ki, o, bu barədə instaqram səhifəsində yazıb:** ”İndiyə qədər belə paylaşım etməmişəm. Amma çox düşündüm və paylaşmağa qərar verdim. 2008-ci ildən avtomobil idarə edirəm və bu zamana qədər heç vaxt YPX işçiləri ilə problem yaşamamışam. Əksinə, hər zaman qarşılıqlı hörmətimiz olub. 2 gün öncə rəfiqəmlə kafedə əyləşərkən ofisiant gəlib, dedi ki, xanım, avtomobilinizə cərimə yazırlar, yerini dəyişin. Çıxdım YPX işçisinə yaxınlaşıb, mülayim tərzdə ”Axı bura kafenin dayanacağıdır, saxlamaq olmaz ki? Kaş işçilərə xəbərdarlıq edərdiniz” - dedim. Niftəliyev Eldar adlı YPX işçisi məni kobudluğu ilə təəccübləndirdi. Qarşındakının xanım olduğunu unutdu. Təkidlə ”siz” deməyimə baxmayaraq o, yenə ”Sən” deyə müraciət edirdi. Həmçinin səs tonunu qaldırıb, kobud ifadələr işlədirdi. Mənim qanun qarşısında boynum qıldan incədir, cərimən varsa, ödəməyə də hazıram. Lakin kiminsə mənimlə belə formada danışmağına icazə vermərəm. Ailə üzvlərimə desəydim, onunla elə öz tərzində danışacaqdılar. Lakin belələrinə görə yaxınlarımı hüzursuz etmək istəmədim. Hər insan ailəsinin kölgəsidir. Hər kəs öz tərbiyəsini göstərir. O polisin qardaşı tanınmış xanəndədir. Əminəm ki, bu yazını görüb çox utanacaq. Ümid edirəm ki, qardaşına bir az tərbiyə dərsi keçəcək”.

**Babək Niftəliyevdən xanım aparıcının ittihamlarına cavab gecikməyib, O, xəbəri paylaşan səhifələrdən birində bu sözləri yazıb:** ”Polis hüquq çərçivəsində iş görür. Bu ölkədə nizam-intizam var. Çalışsın ki, qaydaları pozmayasınız. Çünki qanun hamı üçündür. Bu xanımı tanımıram, kimdirsə, görünür, reklama ehtiyacı var”.

**Samirə Ərəbova**

# Polkovnik həbs olundu, orduda biabırçılıqlar ortaya çıxdı

## Valideynlər böyük rüşvətin müqabilində övladlarını Ermənistan ordusundan gizlədiblər

Qarabağ müharibəsindəki biabırçı darmadağından sonra günahı gah Hindistanın, gah da Rusiyanın üstünə atan Ermənistan, nəhayət ki, məğlubiyyətlərinin səbəbini anlamağa başlayıb. Ermənistan mediasının yaydığı məlumata görə, Milli Təhlükəsizlik Xidməti Ermənistan Silahlı Qüvvələrinin polkovnikini saxlayıb.

Polkovnik rüşvət müqabilində əsgərləri bir hərbi hissədən digərinə, eləcə də ön cəbhədən arxa cəbhəyə keçirməkdə ittiham olunub.

Qeyd olunub ki, polkovnik valideynlərin xahişi ilə 2 000-2 500 dollar müqabilində əsgərləri onların seçdikləri arxa cəbhədəki hərbi hissəyə yerləşdirirdi.

Bundan başqa, o, müharibə dövründə fərarilik hallarını örtbasdır etməkdə də ittiham olunub.

Nəzarət altına alınan polkovniklə yanaşı daha 10 nəfər saxlanılıb.

Qeyd edək ki, Ermənistan ordusunda baş verən rüsvayçı vəziyyət və həbslər ilk deyil.

**Mövzunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu ilə müzakirə etməyə çalışdıq. O, ”Şərq”ə açıqlamasında bildirib ki, indi Ermənistanda kapitulyasiyadır, məğlubiyyət yaşanır. Onlar məğlubiyyətin səbəbini biri-birlərinin və ya hansısa prosesin üstünə atmağa çalışırlar:** ”Orada sözügedən polkovnikin pul alıb əsgərləri arxa cəbhəyə köçürməsindən də böyük cinayətlər baş verib, daha doğrusu, onların üstü açılıb.



Deməli, orada Patron Davo var. İndi bəlli olub ki, o, Rusiyadan Zenit raket kompleksi almaq adı ilə gedib həmin raketə oxşar silahın İordaniya istehsalı olanını alıb. Qiymətdə isə 2 dəfəyə qədər fərq var. Pulun qalanını da öz cibinə qoyub. Hətta deyilir ki, pulun yarısını da Tonoyana verib.

Əslində, bu, o millətin mənəviyyatının, daxili aləminin çürüdüyünün göstəricisidir.

O deyilən polkovnik bir nəfərdir. Amma görün buna oğlunu arxa cəbhədə gizlətmək üçün nə qədər valideyn rüşvət verib. Yəni bu, ordudan yayınmanın geniş olduğunu, ordunun gücü ilə bağlı ermənilərdə milli ruhla əlaqədar deyilənlərin sadəcə mif olduğunun göstəricisidir.

Biz həmişə Ermənistandan danışarkən onların təhtəlşüurunda Azərbaycan parametrini nəzərə almalıyıq. Onlar rəsmi olaraq çıxıb necə yalan danışsalar da, yaxşı bilirdilər ki, onların qonşusu Azərbaycandır. Onlar Azərbaycanın torpağını işğal ediblər və biz nə vaxtsa öz torpağımızı işğaldan azad edəcəyik. Ona görə də belə düşüncələrlə yaşayan, həmin reallıqların təsiri altında olan ermənilər istər-istəməz çalışırdı ki, öz oğlunu hərbidən yayındırsın”.

**Ağarza Elçinoğlu**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Sosial medianı tənzimləmək mümkün deyil

### Ekspertlərin fikirləri haçalandı, bu platformaya görə, ümumiyyətlə, xəbərin kimə aid olduğu bilinmir

Milli təhlükəsizliyin əsas komponentlərindən biri informasiya təhlükəsizliyidir. Xüsusilə də, internet resurslarından istifadənin qlobal xarakter aldığı - geniş yayıldığı, informasiya inklüzivliyinin mövcud olduğu müasir dövrdə milli informasiya məkanının qorunması strateji vəzifələrdən biri kimi qabarır. Ümumiyyətlə, sosial medianın imkanlarının genişlənməsi informasiya təhlükəsizliyi anlayışına yeni məzmun gətirir və bu istiqamətdə milli maraqlardan irəli gələn addımların atılması vacib amilə çevrilir.

Belə bir şəraitdə, heç şübhəsiz, transmilli şirkətlər olan "Facebook", "Twitter" və digər platformalarda münasibətlərin hüquq müstəvisində tənzimlənməsi olduqca mühüm məsələlər sırasında yer alır. Təbii ki, biz ayrı-ayrı ölkələrin nümunəsində bu istiqamətdə müxtəlif təşəbbüslərin irəli sürüldüyünü və addımların atıldığını müşahidə edirik. Məsələ vaxtilə ABŞ-ın keçmiş prezidenti Donald Tramp "Onlayn senzuradan müdafiə barədə" sərəncam imzaladı. Həmin sərəncamda bir çox məqamlar xüsusilə diqqəti cəlb edirdi. Birinci nüans o idi ki, nəhəng sosial media şirkətləri öz maraqlarına uyğun olmayan fikirləri senzuraya məruz qoyur və bununla da "yumşaq güc" mexanizmi kimi "təhlükəli qüvvə" tətbiq edirlər. Digər tərəfdən isə, "Twitter", "Facebook", "İnstagram" və "YouTube" informasiyalarının təqdim edilməsi fonunda açıq və gizli müdaxilələri ilə ictimai rəyi istədikləri istiqamətdə formalaşdırmağa çalışırlar, xüsusilə də fikirlərə qarşı selektiv yanaşmalar tətbiq edirlər.

Bir məsələni də xüsusilə diqqətə çatdıraq ki, sosial şəbəkələr mənəvi sferadan başlamış mədəni-etik sferaya qədər hər yerdə dəyərləri bəzən terrorizə edir, əxlaqi keyfiyyətlərin lazımi əsaslarda formalaşmasına mənfi təsir göstərir. Ona görə də sosial şəbəkələrdə formalaşmış ictimai münasibətlərin mütləq hüquqla tənzimlənməsi zərurəti yaranır. Hətta bu yaxınlarda Rusiyada sosial şəbəkələrdə "uyğunsuz məzmunun bloklanması"nı ehtiva edən qanun qüvvəyə mindi. Fevralın 1-dən qüvvəyə minən qanun "İnformasiyanın Mühafizəsi Qanunu"nun yenilənmiş, əlavələr edilmiş versiyasından ibarətdir. Yeni qanun sosial şəbəkələrin Rusiya seqmenti üçün standartları müəyyən edir və onların fəaliyyət çərçivəsini cızır. Dünya təcrübəsinə nəzər saldıqda ayrı-ayrı ölkələrdə, xüsusən, Çin, İran və digər dövlətlərdə tətbiq edilən modellər sosial şəbəkələrin tənzimlənməsindən daha çox, onların fəaliyyətlərinin məhdudlaşdırılmasına yönəlib. Türkiyədə 2020-ci ildə qəbul edilən qanun daha əhatəlidir, həm də mütərəqqidir. Türk modeli sosial şəbəkələrin məhdudlaşdırılmasına deyil, standartların müəyyənləşdirilməsinə yönəlib. Amma Türkiyə modeli də sosial şəbəkələrlə bağlı bütün məqamları əhatə etmir. Rusiyada fevralın 1-dən qüvvəyə minən qanun bu baxımdan daha əhatəlidir, ən müxtəlif məqamları əhatə edir. Ehtimal edilir ki, əksər ölkələr bu modeli nümunə olaraq götürməklə, üzərində təkmilləşdirmələr aparacaq, yeni milli qanunlar qəbul edəcəklər.

Təbii ki, bütün hallarda, internet azadlığının heç bir halda digər azadlıqları məhdudlaşdırmamalı olduğu nəzərə alınaraq onlayn platformada balansın əldə olunması üçün hüquqi tənzimlənmələrin həyata keçirilməsi labüddür. Əlbəttə, bu istiqamətdə bir çox beynəlxalq təcrübələr mövcuddur. Məsələn, Avropada bir sıra dövlətlər, o cümlədən Almaniya sosial şəbəkələrin zərərli təsirlərindən qorunmaq üçün məhdudlaşdırıcı qanunlar qəbul edib. Bu günləri bir çox dövlətlərdə sosial şəbəkələr barədə universal normativ standartlar mövcud deyil. Elə məhz bu səbəbdən də feyk məlumatlar sərhədsiz olaraq yayılır və heç bir manevəyə məruz qalmır. Nəticədə zərərli informasiyalar cəmiyyətdə geniş şəkildə yayılır. Təbii ki, qlobal xarakter və məzmun kəsb edən belə bir şəraitdə Azərbaycan da prosesdən kənarda qalmamalı və ümumi işə öz töhfəsini verməkl üçün müvafiq addımlar atmalıdır.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən media eksperti Ələsgər Məmmədli bildirib ki, sosial medianın bütünlüklə nəzarət altına alınması kimi bir yanaşma təəssüf ki, bəzi ölkələrdə var. Ekspert bildirib ki, sevindirici haldır ki, bütün dünyada bu, keçərli deyil:** "Çünki ifadə azadlığı aspektindən baxanda sosial medianı tənzimləmək mümkün deyil. Onsuz da bizim nöqteyi-nəzərdən desək, Azərbaycanda tənzimlənmiş sosial mediadakı informasiyaya görə məsuliyyət var. Hətta anonim hesabdan da yayılan informasiyaya görə öhdəlikləri olmaqdadır. Bu kimi məlumatları şəxsi prokurorluq da araşdırır. Xatırladım ki, 2017-ci ildən bəri bizdə informasiya resurslarından, o cümlədən sosial şəbəkədən yayılan qadağan olunmuş məlumatlara görə həm inzibati, həm də cinayət məsuliyyəti var. 12 müxtəlif adda informasiya nəzərdə tutulub ki, bunu da yaymaq qadağan olunub. Bu, ümumi prinsiplərdən daha dardır və daha məhdudlaşdırıcıdır. Bu baxımdan bizim Rusiyanı nümunə olaraq götürməyimiz əlbəttə ki, yanlış olar. Çünki Rusiyada çox ciddi şəkildə Putinin son vaxtlar korrupsiya əməllərini ifşa edən video var. Həmin video artıq 100 milyonlarla izlənilib. Bu məsələ əlbəttə ki, Rusiyanı narahat edir. Rusiyanın bugünkü hakimiyyəti görünür ki, qanunsuzluqlarını örtmək üçün sosial mediaya yönəlir. Ümumiyyətlə, bu bir trenddir. Bəzi basqılı rejimlər doğruları eşitməmək üçün sosial mediaya yönəldilir. Çünki sosial medianın iki tərəfi var. Biri ciddi şəkildə gündəm yarada bilir, yəni doğru hadisələrin tirajlanması kimi. Digər tərəfdən isə ictimai nəzarət funksiyasını həyata keçirir. Bir başqa məqam da var ki, orada bəzən dezinformasiyalar olur. Amma o dezinformasiyaları ortaya çıxartmaq və dərhal dayandırmaq imkanları var. Ona görə də düşünürəm ki, sosial media bilavasitə hazırda cəmiyyətin inkişafına xidmət edir. Xüsusən də daha çox alternativ informasiyanın formalaşmasına xidmət edir".

*Media eksperti əlavə edib ki, daha əvvəllər bir mərkəzdən informasiyanı manipulyasiya edib cəmiyyəti maarifləndirmək mümkün idisə, indi bu gün bu mümkün deyil:* "Təbii ki, sosial medianın varlığı buna imkan vermir. Bu baxımdan sosial mediaya olan məhdudlaşdırıcı yanaşmalar daha çox siyasi basqılar və siyasi iradələrdən doğur, nəinki cəmiyyətin istəyindən. Cəmiyyət isə sosial medianı daha çox özünürahat ifadəetmə platforması kimi görür".

*Ə.Məmmədli diqqətə çatdırıb ki, sosial media artıq öz bazar münasibətlərini qurub:* "Əvvəllər bir çox mərkəzləşmiş xarici media qurumları öz məhsullarını çox baha qiymətə satırdılar. Düzdür, bunu baha satmalarının da bir çox səbəbləri var idi. Çünki onlar infrastruktura müəyyən qədər pul qoyurdular. Amma bu bir az da haqsız qazanc yaradırdı. Çünki normalda media qurumlarının qazanc yeri satdıqları informasiya deyil, reklam idi. Yəni dünyanın hər yerində medianın əldə etdiyi gəlir satdığı məhsul deyil, əslində aldığı reklamdır. Bu baxımdan təzədən reklam alan qurumun bir də informasiyanı pullu satması bir qədər eqoist, həm də monopolist bir davranış idi. Sosial media bu monopolyanı əritdi. Diqqət etsəniz görərsiniz ki, əslində "Facebook" və "Youtube"da informasiyaları pul ödəmədən alırıq. Amma bunu necə alırıq? Bəzən videoya baxdığımız an bizə reklam təqdim olunur. O reklamlar bizim ona baxma haqqımızı ödəmiş olur. Əgər bir videoya baxarkən "Youtube"də anidən bir reklam gələrsə və 5 saniyə vaxt ayırıb ona baxarıqsa, bu da bizim ona ödədiyimiz 5 saniyəlik vaxtın bədəlidir. Bu da çox effektlidir. Burada, yəni maddi olaraq heç nə itirmirik, yalnız zaman itiririk. Eyni zamanda burada bir informasiya içərisində fərqli informasiyanı da görmüş oluruq. Habelə, bunlar içərisində bizə xidmət və yaxud da məhsul təklif edilmiş olur və s. Ona görə də sosial media maqnatların monopoliyasını əridib".

**"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı "Şərq"ə açıqlamasında bildirib ki, media azadlığına məhdudiyyətlərin qoyulması sosial şəbəkələrdə saxta xəbərlər və dezinformasiyanın yayılmasına gətirib çıxarır. O bildirib ki, bunun baş verməməsi üçün ənənəvi media vasitələri azad şəkildə informasiyanı çatdıra bilməlidir:** "Sosial şəbəkə sadəcə olaraq yeni növ xəbər daşıyıcısıdır. Çünki istənilən qəzet, sayt və informasiya agentliyi sosial medianın özündə səhifələrini açırlar. Bir məsələni qeyd edim ki, sosial şəbəkələrdə dezinformasiyalar həmişə olacaq. Bunun qarşısını almağın yeganə yolu həqiqəti tapıb çıxarmaqdır. Bəlkə, texniki imkanlarla da nələrsə etmək olar. Amma ümumiyyətlə, sosial şəbəkəni tənzimləmək mümkün deyil. Çünki hər an texnologiyalar günbəgün inkişaf edir. Yeni asan platformalar meydana çıxır. Diqqət edin ki, bu günləri sosial şəbəkələrdə yazılan bir çox xəbərlərin kimə aid olduğu dəqiq bilinmir. Çünki başqa akkauntlardan girərək, həmin informasiyanı paylaşırlar. Nəticədə həmin informasiyanın kim tərəfindən yazıldığı bilinmir. Düzdür, bir çox ölkələrdə sosial medianın tənzimlənməsi üçün bir sıra qanunlar qəbul edilir. Məsələn, bu yaxınlarda Rusiya sosial şəbəkələrin tənzimlənməsi üçün qanun qəbul edirdi. Hesab edirəm ki, bütün bunların hamısına əbəs yerə vaxt sərf olunur. Çünki kütləni tənzimləmək mümkün olmadığı kimi sosial şəbəkəni də tənzimləmək mümkün deyil. Yəni insanların düşüncəsini ümumiyyətlə, tənzimləmək mümkün deyil".

**Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədli də "Şərq"ə bildirib ki, sosial şəbəkələr narahatlıq yaradan platforma hesab olunur.** Ekspert qeyd edib ki, sosial şəbəkələr hüdudsuz imkanlar açdığı üçün cəmiyyətin inkişafı üçün lazımlıdır: "Reallıq odur ki, indiki dövrdə sosial şəbəkələr olmadan inkişaf etmək, nəyəsə nail olmaq mümkünsüzdür. Amma bununla yanaşı sosial şəbəkələrdə cəmiyyətlərə böyük ziyan vura biləcək təhlükəli məqamlar üzə çıxmaqdadır. Hər bir dövlət bu cür risklərdən qaçmağın, uzaq durmağın metodlarını axtarır".

Ekspert vurğulayıb ki, sosial şəbəkələrin tənzimlənməsi ilə bağlı qanunlar hazırlanmalıdır: "Qanunlar imkan verməlidir ki, konkret halda hansısa şəxsi, yaxud şəbəkəni neqativ əmələ görə müvafiq qanunvericilik müstəvisində mühakimə etmək mümkün olsun. Ancaq belə qanunlardan qətiyyən sui-istifadə edilməməlidir. Kimsə qərəzli şəkildə hədəfə çevrilməməlidir. Hər halda çox incə məsələdir. Əlbəttə, dövlətin və cəmiyyətin inkişafı üçün sosial şəbəkələrdə tənqidi fikirlər, müstəqil ifadələr söylənə bilər. Amma tənqid əsla dövləti və cəmiyyəti parçalamağa, bölücülüyə və separatçılığa xidmət etməməlidir".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Heç kim valideynin qarşısında şərt qoymamalıdır

## "Çünki təhsilə cavabdeh Təhsil Nazirliyinin simasında dövlətdir"



Təhsil Nazirliyi məktəbdə əyani dərslərə gəlməyən şagirdlərin təhsil almasını valideynlərin üzərinə atır. Orta məktəblərin ibtidai sinifləri üzrə əyani dərslərin bərpa olunmasına dair izahında Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu bildirib ki, övladının məktəbə göndərilməsini istəməyən və bunun üçün iltizam yazan valideyn mütləq uşağının müstəqil öyrənməsini təmin etməlidir.

Onun sözlərinə görə, məktəblərdə şagirdlərin sıxlığının qarşısının alınması üçün siniflər iki yarımqrupa bölünüb. Bununla əlaqədar müəllimin dərs yükü iki yarımqrup arasında bölünür. Bu səbəbdən müəllimlərin dərs yükü həmin şagirdlər üçün onlayn dərslərin təşkilinə imkan vermir.

Nazirlik rəsmisi qeyd edib ki, nəzəri olaraq, bütün sinfin valideynlərinin öz övladlarını məktəbə göndərməsindən imtina etməsi də mümkün ola bilər. Bu halda müəllim əvvəlki rejimdə bütün sinif üçün dərsləri virtual keçə bilər.

V.Yaqublu hazırda məktəblərdə sanitar-epidemioloji vəziyyətdən irəli gələn bütün tələblərə əməl edildiyini, onların dezinfeksiyaedici məhlullarla təmin edildiyini nəzərə çatdırıb.

Buna baxmayaraq valideynlər övladlarını məktəbə göndərməkdən ehtiyatlanır. Fevralın 1-dən ibtidai siniflər üzrə əyani tədris bərpa olunar-olunmaz 1 müəllim, 2 şagird və 1 direktor müavinində koronavirus infeksiyası aşkarlanıb. Görünür, valideynləri narahat edən və övladlarını məktəbə göndərməkdən çəkindirən də məhz bu amildir. Verilən məlumatlarda qeyd olunur ki, ibtidai təhsil səviyyəsi üzrə təhsil alan 182 018 şagirddən 1106-nın valideyni övladının tədris prosesində əyani iştirakdan imtina etməsi ilə bağlı iltizam sənədi imzalayıb.

"Valideynlərə bildirmək ki, övladını məktəbə göndərmirsənsə, təhsil almasını özün təmin etməlisən, bu, düzgün deyil"

Bununla vaıideyn həm də övladının təhsil almasını da üzərinə götürmüş olurmu?

**Təhsil eksperti Nabatəli Qulamoğlu "Şərq"ə açıqlamasında bildirdi ki, övladını məktəbə göndərməmək valideynin hüququdur:**

- Azərbaycanda təhsil qanunla tənzimlənir. Təhsil icbaridir və cavabdeh də dövlətdir. Lakin, məlumdur ki, fors-major hallar yarana bilir. Koronavirus pandemiyası kimi. Belə hallarda qanun qüvvəsini itirir. Belədə vəziyyətdən çıxış yolları axtarılır. Onlayn tədrisə keçid də buna görə qərara alındı. Amma valideynlərə bildirmək ki, övladını məktəbə göndərmirsənsə, təhsil almasını özün təmin etməlisən, bu, düzgün deyil. Çünki bayaq dediyim kimi təhsilə cavabdeh Təhsil Nazirliyinin simasında dövlətdir. Nazirlik məktəbə gəlməyən, əyani dərslərdə iştirak etməyən şagirdlərin onlayn formada tədrisini təmin etməlidir. İndiki şəraitdə heç kim valideyni nəyəsə məcbur edib onun qarşısına şərt qoymamalıdır. Valideynlər yoluxmadan ehtiyatlanır və buna əsasları da var. Övladını məktəbə göndərməmək valideynin hüququdur.

*Nazirlik rəsmisinin "məktəblərdə şagirdlərin sıxlığının qarşısının alınması üçün siniflər iki yarımqrupa bölünüb. Bununla əlaqədar müəllimin dərs yükü iki yarımqrup arasında bölünür. Bu səbəbdən müəllimlərin dərs yükü həmin şagirdlər üçün onlayn dərslərin təşkilinə imkan vermir" açıqlaması ilə N.Qulamoğlu razılaşmadı:*

- Üz-üzə təhsil tam gücü ilə bərpa edilməyib. Şagirdlər həftədə 3 dəfə dərsə gedir. Dərs saatları da azaldılıb. Dərslərin əyani keçilmədiyi günlər və saatlarda müəllimlər onlayn tədrisə cəlb edilməlidir. Şagirdlə onlayn görüşün vaxtını məktəb rəhbərliyi, müəllimlər təyin etməlidir. Bunu təşkil etmək lazımdır. Şagird və valideyn qarşısına "məktəblər açılıb, dərslər başlayıb, gəlməsəniz, özünüz öyrənəcəksiniz" şərtinin qoyulması qanunsuzdur. Bu, məsuliyyəti üzərindən atmaqdır.

**Məlahət Rzayeva**

# Şübhələr əbəsdir, peyvənd mütləqdir

## Azərbaycana gələn vaksinlərin təhlükəsizliyi həm Türkiyə dövlətində laborator şəraitində yoxlanılır, həm də ölkəmizin xüsusi diqqəti altındadır



**18 yanvar 2021-ci il tarixdən ölkəmizdə koronavirus əleyhinə vaksinasiya proqramına başlanılıb. Lakin cəmiyyətdə proseslə bağlı fərqli fikirlər var.**

Elə Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən keçirilən sorğunun nəticələri də peyvəndləməyə qarşı müxtəlif fikirlərin olduğunu göstərir. Vaksinasiya ilə bağlı birmənalı ictimai mövqenin olmaması kütləvi vaksinasiyanın qısa zaman ərzində uğurlu icrası haqqında müəyyən şübhələr yarada bilər. Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında telefonla aparılıb. Sorğuda təsadüfi üsulla seçilmiş 1200 respondent iştirak edib. Respondentlərin 58.3 faizi peyvənd olunacağı təqdirdə bunun mənfi təsirinin olacağını düşünür. **Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov məlum sorğunun nəticələri barədə "Şərq"ə danışıb:** "Keçirilən sorğu nəticəsində məlum olur ki, Azərbaycanda vətəndaşların böyük hissəsi COVİD-19 virusuna qarşı vaksinasiya olunmağa tərəddüd edir. Onların az hissəsi yenə də çipləşmə kimi cəfəng fikirlərdədir, böyük əksəriyyəti isə vaksinin yan təsiri olmasını düşünür. Dünya bundan öncə də ağır gedişatlı və öldürücü viruslar ilə üz-üzə qalıb. Tarixə nəzər salsaq, bir çox xəstəliklərin qarşısının kütləvi alınmasında məhz vaksinasiya böyük rol oynayıb".

**Assosiasiya sədrinin sözlərinə görə, cəmiyyətdə belə bir fikir var ki, COVİD-19 virusu yenidir və bu qədər tez bir zamanda vaksinin icad edilməsi şübhəli və təhlükəlidir:** "Hazırda XXI əsrdə yaşayırıq və yüksək texnologiyalar dönəmidir. Vaksinin tez bir zamanda icad edilməsində məqsəd odur ki, dünya alimləri səfərbər olaraq bu virusun qarşısını almaq məqsədi ilə bütün biliklərini və imkanlarını ortaya qoyublar. Əslində çox şanslıyıq ki, məhz 21-ci əsrdə bu virusla qarşılaşdıq, əks halda vəziyyət qat-qat acınacaqlı ola bilərdi. Ölkəmizə gəldikdə isə dövlətimizin əsas məqsədi tez bir zamanda virusa yoluxma riskini aradan qaldıraraq, vətəndaşların normal həyata qayıtmasını təmin etməkdir. Azərbaycana gələn vaksinlərin təhlükəsizliyi həm Türkiyə dövlətində laborator şəraitində yoxlanılır, həm də ölkəmizin xüsusi diqqəti altındadır. Vətəndaşlarımıza müraciət edərək qeyd etmək istəyirəm ki, COVİD-19 pandemiyasından yeganə çıxış yolu vaksinasiyadır. Hər kəsi şübhə etmədən vaksinasiyaya çağırıram!".

**Yeganə Bayramova**

# Hamı vaxtını, çağırışını gözləyir

## Yaşlı adamların vaksinasiya qorxusu canlarından çıxıb

Tibb işçilərindən sonra 65 yaşdan yuxarı vətəndaşlarımızın da vaksinasiyasına başlanılıb. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin məlumatına görə, qeydiyyatdan keçdikdən sonra vətəndaşlara sms vasitəsilə məlumat veriləcək və onlar peyvəndin birinci dozasını vurdura bilər:

"İkinci dozanın vurulma tarixi və digər zəruri məlumatlar vətəndaşlara tibb məntəqəsində təqdim edilən "Məlumat forması"nda öz əksini tapsa da, əlavə olaraq sms vasitəsilə ikinci dozanın vurulma tarixi təkrar bildiriləcəkdir. Qeyd edək ki, yalnız randevu.its.gov.az internet ünvanında öncədən qeydiyyatdan keçməklə vaksinasiya üçün müraciət etmək mümkündür və ikinci dozanın vurulması birinci dozanın vurulduğu məntəqədə həyata keçiriləcəkdir. Sözügedən sistemdən istifadə qaydaları ilə bağlı yaxın günlərdə əlavə təlimatlar veriləcəkdir".

Qeydiyyat prosesinin onlayn keçirilməsi isə poliklinikalarda yarana biləcək sıxlığın qarşısının alınması məqsədi daşıyır. Lakin sözügedən saytda qeydiyyatdan keçə bilməyənlər yaxınlıqdakı poliklinikalara müraciət edə bilərlər.

Qeyd edək ki, vətəndaşlar qeyd edilən randevu vaxtını və ya məntəqəni dəyişmək istədikdə göstərilən prosesi yenidən icra etməli olacaqlar. Gün ərzində 3 dəfə randevu dəyişikliyinə icazə verilir.

**Bəs, yaşı 65-dən yuxarı olan vətəndaşlar özləri nə düşünür. Onlar peyvəndlənməyə maraqlıdırlarmı?**

"Şərq"in əməkdaşları bu yaşda olan insanlarla söhbətləşib. Bəziləri xəstəxanalar tərəfindən çağırışlarını gözləyir, bəziləri də bu işin vacib olduğunu və hər kəsin vaksin vurdurmasını doğru sayırlar. Bir neçə yaşlı da "çip" şayiələrinə inanır, ya da sözügedən vaksinin əks-təsirlərindən çəkinərək vaksinasiyada iştirak etmək istəmirlər.

*Ahıl nəslin koronavirus əleyhinə vaksinasiya ilə bağlı fərqli fikirlərini təqdim edirik:*





**Şəhər sakini Eldar Allahverdiyev** özü bu barədə qərarsız olsa da hər kəsin virus əleyhinə peyvənd olunmasının tərəfdarıdır: "Düşünürəm ki, bunu hər bir vətəndaş etməlidir. Düzü, bu barədə bir az qərarsızam. Çünki əks fikirlər var. Lakin məni nə vaxt poliklinikadan çağırsalar, əlbəttə həm özümün, həm də başqa adamların sağlamlığından ötrü vaksinasiyada iştirak edəcəyəm".

Adlarının anonim qalmasını istəyən iki xanım isə belə düşünür: "Şəxsən biz müsbət qarşılayırıq. Doğrudur, buna aid əvvəllər neqativ fikirlər yayıldı. Amma, hər bir şəxs öz sağlamlığının qayğısına qalmaq üçün vaksinasiya olunmalıdır. Əks təqdirdə, yoluxma riski yüksək olduğu üçün xəstəliyə tutulmaq an məsələsidir".

**Vahid Quliyev:** "Bu bəlanın birdəfəlik kökünü kəsmək üçün vaksinasiya mütləq lazımdır. Doğrudur, bəzi şəxslər bu məsələyə şübhə edirlər. Fikrimcə, belə düşüncələr düzgün deyil. Çünki vaksin ölkəyə gətirilən zaman dövlət onu müəyyən sınaqlardan keçirib. Əgər faydalı olmasa və insanlara ziyan vursa məsləhət bilməzdilər. Üstəlik, ilk növbədə tibb işçiləri, müəyyən dövlət adamları, deputatlar da bu prosesdən keçiblər. Böyük məmnuniyyətlə biz də vaksin vurdurmağa hazırıq".

**Ağayeva Rayisə:** "Vaksinasiya ilə bağlı fikirlərim çox müsbətdir. Həmin prosesdən sonra yoluxma saylarının azalması, sabitləşməsi də onu göstərir ki, vaksinasiya olunmaq olduqca vacibdir".

**Sultanov Fəxrəddin** düşünür ki, yoluxmanın qarşını almaq və pandemiyadan yaxa qurtarmaq üçün vaksinasiya şərtdir: "Vaksinasiya ilə bağlı fikrimiz odur ki, nə vaxt sıra bizə gəlsə, gedib bu prosesdən keçək. Sağlamlığımız üçün çox vacibdir. Yoluxma baş alıb gedir. Tezliklə bu illətdən qurtulmaq lazımdır. Bunun da bir yolu var. O da vaksin vurduqmaqdan keçir".

**Muradova Səbinə:** "Əslinə baxanda qərarsızam. Əgər desələr ki, gedin vurdurun, gedərəm. Lakin hələ düşünürəm".

**Aytac Ali,**
**Ağarza Elçinoğlu**

# Hamıya pul paylamaq mümkün deyil



## Uşaqpulu çoxuşaqlı və ehtiyacı olan ailələrə verilməlidir

Azərbaycanda uşaq pulunun verilməsinə dair gözləntilər artmaqdadır. Artıq sosial şəbəkələrdə aztəminatlı ailələrə verilən sosial yardımın uşaq pulu ilə əvəzlənməsinə dair fikir və təkliflər səsləndirilir. Bəzən insanlar ünvanlı sosial yardım üçün müraciət belə etmirlər.

Səbəb isə sənədlərin çoxluğu, anlaşılmazlığı və yaradılan bürokratik əngəllərdir. Doğrudur, paytaxt Bakıda bu yardımın verilməsinə dair şəffaflıq qismən də olsa, təmin olunur. Təəssüf ki, rayonlardakı vəziyyətlə bağlı bu sözləri dilə gətirmək mümkünsüzdür. Yəni ünvanlı sosial yardımın üzərində əməllibaşlı alver gedir. Sözügedən yardımı qohumuna verən kim, vətəndaşla sövdələşməyə gedib, 6 ayını öz cibinə qoyan kim. Şübhəsiz ki, bu hal cəmiyyətdə müəyyən narazılıqlara yol açır. Məhz ona görə də insanlar daha şəffaf sistem olan uşaq pulunun verilməsini təklif edirlər. Hətta bəzi ekspertlər də bildirirlər ki, uşaq pulunun bərpasına ciddi ehtiyac duyulur.

**Mövzu ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli deyib ki, uşaq pulu ilə bağlı məsələlərin həlli ilə üçün yeni formul yaradılmalıdır.** İllərdir, bu məsələ müzakirə olunur, lakin həll yolunu görməmişik: "Hamıya eyni qaydada uşaq pulunun verilməsi qərarının ciddi effekt verəcəyini düşünmürəm. Yəqin ki, çox azsaylı rəqəmlərlə uşaqpulunun verilməsi mümkün olacaq. Ölkədə 18 yaşına qədər olan insanların sayı təxminən 2 milyondan çoxdur. Əgər hamıya şamil olunarsa, böyük məbləğ alınır. Kiçik ödənişlərlə olsa belə, ailələrə dəstəyi görmək mümkün olmayacaq. Dəfələrlə təklif etmişik ki, prinsipial yanaşma olmalı və uşaqpulu mütləq bərpa edilməlidir. İlk növbədə aztəminatlı və çoxuşaqlı ailələrə şamil edilərək daha yüksək məbləğdə ödənilməlidir".

*Ekspertin sözlərinə görə, anası və atası işləyən biruşaqlı ailəyə sosial müavinətin verilməsinin köməyi olmayacaq. Amma çoxuşaqlı və aztəminatlı ailələrdə hər manatın öz dəyəri olur. Bir sözlə, aztəminatlı, çoxuşaqlı və ehtiyacı olan ailələr təsbit edilməli və uşaq pulu ilk növbədə həmin ailələrə verilməlidir:* "Bir çox ölkələrdə uşaq pulunun ödənməsinin sosial duruma yaxşı təsir göstərməsi praktik təcrübədə müşahidə edilir. Lakin onların bununla bağlı nəzarət funksiyaları var. Həmin pulla valideynin özünə telefon alması doğru yanaşma deyil. Ola bilər ki, uşaqlara xərclənən çeklərin vəsaiti ayrıca saytda qeyd edilsin. Açıq-aşkar görünsün ki, dövlətin ayırdığı vəsait uşaqlara sərf edilib. Ailədən ailəyə fərq var.

Tutaq ki, valideyn işləmir və içki düşkünüdür, məbləği uşağa xərcləmir. Ona görə də xüsusi nəzarət mexanizminin olmasına ehtiyac var".

**Aygün Tahirqızı**

## Elektrik enerjisinin qiyməti bahalaşmayacaq

Nazim Bəydəmirli: "Elektrik enerjisi onsuz da maya dəyərindən bir neçə dəfə baha qiymətə satılır"



**Suyun qiymətinin bahalaşmasından sonra cəmiyyətdə növbəti ajiotaj yaranıb.**

İndi də işığın qiymətinin artacağı barədə hələ təsdiqini tapmayan, ya da inkar edilməyən iddialar səslənir. Deyəsən, doğrudan da, vətəndaşların "gözü qorxub". Mütəxəssislər isə düşünürlər ki, narahatlığa ehtiyac yoxdur. **Məsələn, iqtisadçı-ekspert Nazim Bəydəmirli bu fikirdədir. O, elektrik enerjisinin qiymətinin bahalaşmayacağının səbəblərini "Şərq"ə izah edib:** "Elektrik enerjisi onsuz da maya dəyərindən bir neçə dəfə baha qiymətə satılır. Qarabağın işğaldan azad olunmuş yerlərində də SES-lər var. SES-lərin sayı çox olduğuna görə, maya dəyəri əslində daha aşağı olmalıdır. Prezidentin 2001-ci ildəki Fərmanını xatırlatmaq istəyirəm. Orada göstərilirdi ki, kommunal xidmətlərin qiyməti maya dəyərinə uyğunlaşmalıdır. Dediyim kimi, qiymət artımı əsassızdır. Bu, heç bir hesablama, araşdırma aparılmadan həyata keçirilir. Beləliklə, əziyyət çəkən vətəndaşlar olurlar. Bu isə kütləvi müflisləşmə ilə nəticələnir. Əhali "boğazından kəsib" kommunal xərcləri ödəməyə məcbur qalır. Təəssüf ki, pandemiya dövründə bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda əhali kommunal xidmətlərin ödənməsindən azad edilmədi. Belə bir tendensiya isə vətəndaşlardan daha çox, müəyyən monopolistlərin maraqlarına cavab verir. Ona görə sözügedən məsələlər düzgün tənzimlənməlidir".

**Kənan**

## Yeni ştamm bəlkə də var

Bunu bilmək üçün gərək hər xəstə uşaq test edilsin




**"Ehtimal var ki, növbəti dalğanın sahibi mutant virus uşaqları yoluxdurmaq üçün xüsusi reseptora ehtiyac duymayacaq və daha çox uşaqları və gəncləri yoluxduracaq".**

*Bunu feysbuk hesabında pediatr Aytən İsmayılzadə yazıb. Pediatr qeyd edib ki, artıq Böyük Britaniyada bu hallar var, amma uşaqlar arasında ağırlaşma halları qeydə alınmayıb:*

- Ona görə hələ qorxu ilə özumuzu yükləməyək. Hazırlıq görulurmü? Ola bilər. Çunki nəyisə öncədən proqnozlaşdırmaq çətindir. Ölkəmizdə yeni ştamm varmı, bəlkə də var. Bunu bilmək üçün gərək hər xəstə uşaq test edilsin. Amma edilmir. Çunki zatən bilsək belə edəcəyimiz nəsə yoxdur. Hələ ki uşaqlar xəstələnsə də, şükür ki, sağalırlar. Həmişə olduğu kimi KRVİ diaqnozu ilə mualicə edirik, orqanizmə dəstək oluruq, ağırlaşıb-ağırlaşmayacağına nəzarət edirik. Yeni ştamm uşaqlardan böyuklərə keçə biləcək deyə yayılma artarsa, uşaq muəssisələri bağlanar. İndilik məsləhətim budur ki, böyuklər peyvənd olunsunlar. Bəlkə peyvənd yeni ştamma qarşı effektiv olar və böyuklər uşaqları yoluxdurmaz. Uşaqları dərsdən yayındırmaq lazım deyil, məktəbə getsinlər, bir az dəyişiklik olar onlar üçün. Onsuz da vəziyyət ciddiləşsə yenidən evdə qalacaqlar. Vəziyyət isə onlar məktəbə getdikləri üçün ciddiləşməyəcək. Bu, virusun aqressivliyinə bağlı olacaq. Yoxsa sadə virus kimi də ötüşüb keçə bilər. Pediatr məsləhət görür ki, uşaqları indidən muxtəlif vitaminlərlə yükləmək lazım deyil. Bunun heç bir mənası da yoxdur: - Ola bilər ki, uşaqları yoluxduran "COVİD" özunu rotavirusdan (qusma-ishalla müşahidə olunan) artıq formada aparmaz. Belə olduqda təhlukə də olmayacaq. Məni narahat edən və valideynləri də narahat etməli olan bir məqam da uşaqların ümumiyyətlə peyvəndsiz qalmasıdır. Qızılca, göyöskurək, poliomielit kimi bildiyimiz ağır keçə bilən xəstəliklərin peyvəndini etməyi ləngitməyin. Əsas onların təhlukəsi böyükdür. Dəqiq bildiyimiz budur. "COVİD" isə yeni hansı sürprizlə gələcək, onu dəqiq bilmirik.

**Məlahət**

# Hələ ki, qorunmaqdan başqa yolumuz yoxdur

## Ən effektli maskalar isə N95 tipli maskalardır



İtaliyalı həkim adi tibbi maskaların koronavirusun mutasiyaya uğramış Böyük Britaniya ştammından qorumadığını bəyan edib. Uzun müddətdir COVİD-19-la bağlı təhqiqatlar aparan həkim Pyer Luici Bartoletti belə bir açıqlama verib ki, tibbi maskaların Britaniya variantı hesab edilən B117 virusuna heç bir təsiri yoxdur.

Mutasiyaya uğramış virusa qarşı FFP2 və FFP3 tipli maskalardan istifadə edilməlidir. Çünki virus qapalı yerlərdə maskadan nüfuz edə bilir. İtaliyalı həkim yeni virusun daha tez yoluxdurucu qabiliyyəti, daha tez adaptasiya olunaraq sürətlə yayılması nəzərə alınaraq ondan daha güclü qorunmanın vacibliyini diqqətə çatdırıb.

**Azərbaycanlı həkim, infeksionist Mərdan Əliyevsə italiyalı həmkarının dediklərini çox da inandırıcı hesab etmədi. "Şərq"ə açıqlamasında M.Əliyev qeyd etdi ki, əsas məsələ virusun orqanizmə düşüb-düşməməsidir:**

- Koronavirusun mutasiyaya uğramış variantından danışılır. Yeni virus əvvəlkindən daha qorxulu deyil, daha ölümcül deyil. Virusun ölçüsündə, formasında dəyişiklik yaranmayıb. Bu, gendə baş vermiş mutasiyadır. Burada məsələ nədir; hüceyrəyə yapışan zülal ki var - protein, həmin proteinin yapışma qabiliyyəti yüksəkdir. Yəni virus orqanizmə düşərsə, hüceyrəyə daha bərk, daha möhkəm yapışır və yoluxduruculuq qabiliyyəti yüksəkdir. Yoxsa yeni virusun öldürücülük qabiliyyəti yüksək deyil. Əsas məsələ virusun orqanizmə düşməsinin qarşısını almaqdır. Bunun qarşısını da tibbi maskalar almaq qabiliyyətindədir. Bizdə FFP2, FFP3 tipli maskalar barədə məlumat yoxdur. Bu maskalar harada istehsal olunur, satışda varmı, yoxmu, məlumatsızıq. Azərbaycanda apteklərdə 3 növ qoruyucu maska satılır. Bildiyimiz tibbi maskalar, onlara cərrahi maska da deyilir, N95 tipli maskalar, hansı ki, filtrlidirlər, bu maskaların da filtrində kömür yerləşdirilmiş növü var, kömür kənardan gələn bakteriyaları daha yaxşı tutur və içəri nüfuz etməsinin qarşısını alır. Adi filtrli maskalar da effektlidir. Bir də var, "nano-maska"lar. Satışda olan qara, cürbəcür rənglərdə maskalardır. Onlar sadəcə rahat taxıldığı üçün və yəqin ki, görkəminə görə bəzilərini cəlb edir. Lakin sizə deyim ki, ən az qoruyuculuq qabiliyyətinə malik məhz bu nano-maskalardır. Ən uyğunu tibbi maskalar və N95 tipli maskalardır. Vətəndaşlar da bilsinlər ki, nə qədər pandemiya bitməyib, maskalardan mütləq istifadə etməlidirlər. Virusun orqanizmə düşməsinin qarşısını almaq üçün ən effektiv vasitə qoruyucu maskalardır.

**Məlahət Rzayeva**

# Manaf Ağayevin atdığı daş İlham Mirzəyevə dəydi



## "Bəs sənə necə təşəkkür edim ki, əvəzini çıxım?"

Manaf Ağayevin başlatdığı qalmaqal rüzgarı səngimək bilmir. Müğənni Tolikin verilişində aparıcı İlham Mirzəyevə də irad bildirib. İ.Mirzəyevin dar günündə ona dəstək olmadığını söyləyib:

"Həbsdə olanda getdim yanına, dedim gələn olub? Dedi, yox, dedim gələn də olmayacaq. Çünki bu cəmiyyəti bilirəm. O, çıxana qədər evinə getdim, kömək etdim. Bir nəfərə deyib ki, Manafı müdafiə edə bilmərəm, məni söyəcəklər. Məni də sənin yanına gələndə söydülər ki, sən hara, o, hara".

**İ.Mirzəyev instaqram səhifəsində Manaf Ağayevə cavab verib. "Şərq" qəzeti xəbər verir ki, o, illər əvvəl verilişdə M.Ağayevi müdafiə etdiyi görüntüləri paylaşaraq bu sözləri yazıb:** "Manaf, düz deyirsən, adam umduğu yerdən küsər. Dar günümdə mənəvi dəstəyə ehtiyacım var idi, sən də mənə dayaq oldun. Mən də hər zaman, ad günlərində, oğlunun toyunda, qonaq olduğum bütün verilişlərdə sənə təşəkkür etdim. Dedim, Manaf mənə dəstək olduğu üçün qarşısında baş əyirəm. Allah kiməsə pis gün qismət etməsin, düşmənimə də arzulamıram. Manaf, bu sənin pis günün deyildi? Sadəcə bəzi insanların qurması idi. Onsuz da səni hamı tanıyır. Çoxlarına əl tutmusan, yaxşılıq etmisən. Sadalamaqla bitməz. Bəs sənə necə təşəkkür edim ki, əvəzini çıxım? Həyat hələ qarşıdadır. Yaxşılıq yerdə qalmır, dəyərli insan. Vaxt gələr yaxşılığının əvəzini çıxaram, nəvələrinin xeyir işində inşallah. Çox dəyərlisən, Allah səni də, ailəni də qorusun. Mənə də imkan versin ki, borclu qalmayım. Tanrı heç kimi dara salmasın və gözükölgəli etməsin. Bir daha sənə təşəkkür edirəm, Manaf. Bu paylaşımda da görünür ki, verilişdə olmasan da sənin haqqında öz fikrimi deyirəm. Səni yaxından tanıyanlar bilir ki, necə ürəyə maliksən. Daha nə cür təşəkkür edim. Nə verilişim var, nə vəzifəm. Necə edim, bilmirəm".

*Qeyd edək ki, İlham Mirzəyev Tolikin illər əvvəlki verilişindən bir kadr paylaşıb. Proqramda Manaf Ağayevin Əməkdar artist adı alıb-almaması müzakirə olunur. Tolik deyir ki, "Manaf bu günə qədər bir əsər oxumayıbsa, bir yerdə konsert verməyibsə, niyə onu Əməkdar artist adına layiq görsünlər?". Aparıcının sözlərinə kəskin münasibət bildirən İlham Mirzəyev "Elə xalq artistləri, əməkdar artistlər var ki, bir dəfə də əsər oxumayıblar. Manaf onlaırn nəyindən əskikdir?!"- deyə etiraz edib.*

**Samirə Ərəbova**

## Röya peyvənd olundu



**"Bu gün könüllü peyvənd olundum. Düzü, belə gözləmirdim. Heç bir əlavə təsiri olmadı, özümü yaxşı hiss edirəm".**

"Şərq" qəzeti xəbər verir ki, bu sözləri instaqram səhifəsində tanınmış müğənni, Xalq artisti Röya yazıb. O, 21 gün sonra 2-ci dozanın vurulacağını söyləyib: **"Bu virus bəlasından xilas olmaq üçün vaksin vurdurmağı məsləhət görürəm. Qorxmayın, hər şey yaxşı olacaq. Allah köməyiniz olsun".**

**Samirə Ərəbova**

## Bank Güneli evini əlindən almaqla hədələyib



**Müğənni Günel Ələkbərova kreditə götürdüyü evinin aylıq haqqını ödəyə bilməyib.**

Borclu olduğu bank sənətçiyə bunla bağlı dəfələrlə xəbərdarlıq edib. Onlar bildiriblər ki, ev Günelin əlindən alınacaq və satışa çıxarılacaq. Bu haqda müğənni "Günə bir şou" proqramında qonaq olarkən danışılıb. Daha sonra isə bildirilib ki, Ələkbərovanın evinin banka olan borcunu müğənni Manaf Ağayev ödəyib.

# Murad Arif haqq səsini qaldırdı



## "Sualım budur ki, texnologiya erasında niyə Azərbaycanda Mp3 mahnı yükləmə saytlarını bağlamırlar?"

"Bir zamanlar Azərbaycanda pirat studiyalar vardı. Sənətçinin yaradıcılığı pirat disklərlə, kasetlərlə satılırdı, amma ona heç nə çatmırdı. Bununla mübarizə etmək çətin idi.

Çünki həmin studiyalar kiminsə qohumunun idi, arxasında dayıları olurdu və sair. İndi 2021-ci ildir, digital platformalar dünyasıdır. İstifadəçi ayda 4 manat ödəməklə dünya musiqisini əldə etmək imkanı qazanır. 50-dən çox belə platforma var, sadalamağa ehtiyac yoxdur. Sualım budur ki, texnologiya erasında niyə Azərbaycanda Mp3 mahnı yükləmə saytlarını bağlamırlar? Nə üçün bu sahədə qadağa qəbul olunmur? Beləliklə insanlar pis-yaxşı, bərbad, ya möhtəşəm, istehsal etdikləri musiqini sata bilsinlər. Qazandıqları məbləğ də onların minimum xərclərini qarşılasın. Elementar bir şeydir və harda fikirlərimi səsləndirsəm, deyirlər görürsən, Rusiyada da hələ həll etməyiblər, Somalidə belədir, Uqandada elədir... və sair. Məncə, belə bir məqamda yeni texnologiyanı tətbiq etməyən, yaxud da istifadəsini istəməyən, bu mövzuda geridə qalmış ölkələri misal göstərmək lazım deyil. İstərdim ki, sənət dostlarım da mənə qoşulsun. Aidiyyəti qurumlar, idarələr, nazirliklər reaksiya olsa, yaxşıdır.

**"Şərq" qəzeti xəbər verir ki, bu sözləri tanınmış müğənni, bəstəkar Murad Arif öz feysbuk səhifəsində paylaşdığı videoda deyib, günümüzün aktual problemi olan pirat mahnı yükləmə saytlarından danışıb. M.Arif videonun şərh bölməsinə qeyd də əlavə edib:**

"Bəllidir ki, musiqiçi teatrdan, klubdan, TV və radiodan qonorar almır. Bu halda, ümid yalnız "Musiqisini satmağa" qalır. O da alınmır. Çünki ölkəmizdə Mp3 saytları, "YouTube"dən, Mp3 yükləyən proqramlar, bir sözlə, piratçılıq imkan vermir. Əsl yaradıcılıq, əsl kreativlik mahnı, albom satılanda meydana gəlir. Özəl məclislərə göz dikməyən ifaçılar da müxtəlif mövzuda, janrda, ritmdə maraqlı işlər təqdim etməyə başlayırlar. Hörmətli Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi , bütün sənətçilər adından, xahiş edirik. Ölkə ərazisində Mp3 saytlarını və Mp3 Konvertasiya səhifələrini, texniki olaraq əngəlləmək çətin deyil, həll olunan məsələdir. Sadəcə bununla maraqlanmaq və problemi aradan qaldırmaq lazımdır. Daha sivil və qayda-qanunlu şou-musiqi sektorumuz olsun, ən azı alternativ janr ifaçıları da qazana bilsin, sənətçilərdə yaradıcılıq stimulu yaransın".

**Samirə Ərəbova**

# Fədayə Laçının çörəyi dizinin üstündədir

Tanınmış müğənni Manaf Ağayev prodüser Tarix Əliyevin "Günə bir şou" verilişində iddialı açıqlamalar verib. O, həmkarı Fədayə Laçından incidiyini dilə gətirərək tənqidlərə məruz qaldığı zaman ona dəstək olmadığını söyləyib: "Fədayə Laçın həbs olunanda gecə zülüm-zülüm ağladım. Dedim ki, axı zindan onun yeri deyil. Özümü atdım odun-alovun içinə.

Mənə Fədayə lazım idi?! Fədayə ilə heç bir münasibətim olmayıb. Toylarda rastlaşmışıq, salam-sağol etmişik. Nə isə... Həmin ərəfə evlərinə getdim, bacısına, oğluna, anasına dedim, narahat olmayın. Nə lazımdırsa, edəcəyik. Özüm də pul qoydum, dostlarımdan da dəstək aldım. İki il onlara köməklik etdim. Bir gecə də səninlə birlikdə (Toliki nəzərdə tutur-red.) hamını çağırdıq ki, pul lazımdır. Düzdür, sağ olsun çıxdı, dilə gətirdi. Amma, ay Fədayə, zindandan ağır gün yoxdur. Sən instaqramda bütün gün canlı yayımdasan, bir kəlmə deyə bilməzdin ki, ay əmioğlu, belə şeylərə fikir vermə, hamı səni tanıyır?! Bu bəs idi. Manafı tərifləmə, tərifləsən söyəcəklər. Bir kəlmə denən ki, əmioğlu, mənim üçün belə yaxşılıqlar etmisən".

*M.Ağayevin bu fikirləri səsləndirdiyi videonu Tolik instaqram səhifəsində paylaşıb.*

**"Şərq"in məlumatına görə Fədayə Laçın M.Ağayevin ittihamlarını cavabsız qoymayıb. O, paylaşımın şərh bölməsində bunları yazıb:** "Manaf haqda həmişə yaxşı fikirdə olmuşam. Daim deyirəm ki, Manaf kişi oğlu kişidir. O, dar günün dostudur. Lakin bunu sosial şəbəkələrdəmi səsləndirmək lazım? Həm də, ay Manaf, o aralarda səni qınayanlar elə məni də qınayırdılar. Nə isə... Allah can sağlığı versin. Nəvələrinin xeyir işində əvəzini çıxaram. Özü də necə lazımdır".



## Manaf Ağayev, Rəqsanə sənət yoldaşını top atəşinə tutdular

**Qalmaqala digər müğənni Rəqsanə İsmayılova da qoşulub. O da rəy yazaraq Fədayə Laçından şikayətlənib:** "Manaf o qədər düz danışır ki, Allah sənin balaların saxlasın. Mən də Fədayə Laçına çox kömək etmişəm. Tutulmazdan əvvəl onunla münasibətim olmayıb. Sadəcə həbsini eşitmişəm, evlərinə anamla kömək göndərmişəm. Özü də necə lazımdır. Sonra gecə saat 3-də neçə dəfə pul yollamışam. Moskvaya gətirmişəm, ona konsert təşkil etmişəm. Burda başlayıb, işləyir, pul qazanır. Amma hələ eşitmədim, ya özü, ya da bacısı desin ki, Allah Rəqsanənin balasını saxlasın, sağ olsun. Mənim heç kimə borcum yoxdur. İnsan necə dar günündə yanında olanın yaxşılığını unudar? Gördüm ki, yaxşılıq edib belə olmaqdansa, etməmək gözəldir. Fədayəyə pul yığılırdı, müğənni yoldaşlarıma zəng vurdum ki, gəlin kömək edək. Əksəriyyəti məni acıladı ki, o öz ağlının ucbatından ora düşüb. Ağlı var idi səhv etməyəydi. Yenə də ürəyim dözmədi. Bacısı İlahəyə dedim, nə lazım olsa, yardım edəcəm, etdim də. Lakin hər şey unuduldu. Nə isə... əsas odur əməllərimizi Allah görür".

**Samirə Ərəbova**

# İntiqam ağır oldu

## Xaçaturyanı üç qızı birlikdə öldürdü



(Əvvəli səh: 16-da)

Qızların cinayəti və məhkəmə prosesi sadəcə Rusiyada deyil, dünya miqyasında geniş müzakirələrə səbəb olub. Mixail Xaçaturyanın qohumları iddia ediblər ki, üç qız həbs cəzasından xilas olmaq üçün "təcavüz" nağılı uydurublar.

Guya, onların məqsədi atalarının mirasına sahib olmaq imiş. Qızlar isə atalarının onları kölə kimi işlətdiyini, dəhşətli işgəncə verdiyini və dəfələrlə təcavüzə məruz qaldıqlarını söyləyiblər. İfadələrin ardınca prokurorluq 18 yaşları tamam olmuş Krestina və Angelinaya 20 il, azyaşlı Mariyaya isə 10 il iş kəsilməsini istəyib. Üç bacının qəsdən adam öldürmək suçu ilə ittiham olunması ölkə ictimaiyyətini ayağa qaldırıb. Reaksiyalardan sonra məhkəmə cinayətin müdafiə zəminində baş verdiyinə, qəsdən və planlı hazırlanmadığına qərar verib. Lakin bir müddət sonra qızların yenidən mühakimə olunacağı ilə bağlı qərar verilib. Xəbərin ardınca qızları müdafiə edən insanlar məhkəmə önündə etiraz aksiyasına başlayıblar. Qadın hüquqları təşkilatları və yüz minlərlə insan üç qız haqqında veriləcək yekun qərarı gözləyirlər.

**İsmayıl**





## Qılınclara maraq artıb

### İstehsalçı sifarişlərə yetişə bilmir

*(Əvvəli səh: 16-da)*



**600 -1200 TL arasında dəyişən qılınclar arasında ən çox "Staghorn" maraq doğurur. Həmin qılıncın qiyməti 750 TL-dir.**

20 ildir ki, bıçaq ustası olan Savaş Sezgin xüsusi sifarişlər əsasında bəzəkli qılınclar hazırladığını söyləyib. O, qılıncların ağızlarının iti olmadığını və onları bəzək məqsədilə düzəltdiyini qeyd edib. Savaş yaxşı qılıncın sapından və poladından müəyyən olunduğunu diqqətə çatdırıb. O əlavə edib ki, hazırda sapı maral buynuzundan olan yüksək keyfiyyətli poladdan hazırlanmış qılıncları da var: "Bu qılıncın qiyməti 750 TL-dir. Onun hazırlanmasında keyfiyyətli materiallardan istifadə olunub. Sapını poladdan etmişəm. Bəzi insanlar bunu dəmirdən hazırlayır, parıldadır və onu polad kimi satır. Bəziləri isə ağac gövdələrindən hazırlayaraq onu buynuz olaraq sərgiləyir." *Savaş Sezgin tam fərqli formalı qılınclara sahib olduğunu söyləyib:* "Bu qılınclar türk seriallarında gördüyümüz qılınclardır. Son zamanlar insanlar televiziyada gördüklərinin tam eynisini istəyirlər. Bəziləri üzərinə yazı və yaxud da ad yazılmasını tələb edirlər. İstənilən modeli 7-10 günə qədər hazırlayırıq. Onlayn sifarişlərdə də böyük bir artım görülməkdədir".

**Aynurə**

# Qəza xəbərsiz gəlir

Hər il Azərbaycanda tikinti sektorunda qəza halları müşahidə edilir. Kimisi işçiləri qaydalara riayət etməməkdə, kimisi də tikinti şirkətlərini bu məsələyə biganə yanaşmaqda günahlandırır.



## Tikinti şirkətlərinin çoxu təhlükəsizlik qaydalarına riayət etmir

Məsələn, fevralın 1-də saat 21 radələrində "Kolin" inşaat şirkəti tərəfindən tikintidə qəza baş verib. Verilən məlumata görə, Bakı-Yalama dəmir yolunun Şabran rayonu ərazisindən keçən hissəsində fəhlələr təmir-tikinti işləri apararkən xəsarət alıblar. Yaralılar Şabran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar.

Ə.Ağayevə onurğanın boyun şöbəsi fəqərələrinin sınığı, F.Ağarzayevə isə onurğanın bel şöbəsinin əziyi diaqnozu qoyulub. Ə.Ağayevin vəziyyəti ağır olduğundan müalicə və müayinə üçün Bakı şəhərinə göndərilib.

Təəssüf ki, tikintidə belə qəzaların sayı hər ötən gün artır.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, tikinti şirkətləri layihələrin həyata keçirilməsi zamanı mütləq şəkildə tibbi, yanğın, ekoloji təhlükəsizlik qaydalarına ciddi surətdə əməl etməlidir:** "Tikinti başlanan ilk gündən bitənə qədər bütün təhlükəsizlik standartlarına cavab verməlidir. Qurğular, kranlar, qaldırıcı mexanizmlər və digər tikinti materiallarının hamısı təhlükəsizlik normalarına uyğun olmalıdır. Tikintiyə daxil olan şəxslər təhlükəsizliklə bağlı təlimatlandırıldıqdan sonra fəaliyyətə başlamalıdır.

Təbii ki, tikinti gedən əraziyə kənar şəxslər daxil ola bilməz. Bu proses dövründə işçilərə hər gün, mexanizm dəyişikliyi olarsa, ayda bir dəfə növbədənkənar təlimatlandırma olmalıdır.

Hər hansı qəza hadisəsi baş veribsə, növbəti gün mütləq işçilərə təhlükəsizliklə bağlı məlumat verilməlidir. Mexanizmlər insan həyatı üçün təhlükə riski daşıyır".

Ekspertin sözlərinə görə, təəssüf ki, bu gün tikinti şirkətlərinin çoxu təhlükəsizlik qaydalarına riayət etmir, biganəlik var: "Ağır tonlu maşınların arxasından keçmək olmaz. Hündür mərtəbədə işləyirlərsə, kəmərdən istifadə etməlidirlər. Əgər qaldırıcı mexanizmlər yükü qaldırırsa, altından işçilərin keçməsi düzgün deyil.

Bu nə dərəcə doğrudur?! Yay aylarında havanın temperaturu 38-40 dərəcə olanda işçiləri çalışdırırlar, günün qaranlıq saatlarında tikinti dayanmalıdır. Bütün bunlar işçilərin rahat və təhlükəsiz işləməsini təmin edir. Ölkədə baş verən qəzaların çox hissəsi tikinti sektorunun payına düşür.

Çünki məsuliyyətsizlik, laqeydlik var. Bu, bütün tikinti şirkətlərinə aid deyil. Təhlükəsizlik qaydalarına mütləq əməl edilməlidir".

**Aygün Tahirqızı**

## Peyvənd çatışmır

### Almaniya koronavirusla mübarizəyə yeni antikor əsaslı dərmanı alıb




**Dünyada peyvənd krizi yaşanmaqdadır. Kütləvi peyvəndləmə üçün kifayət qədər peyvənd yoxdur. Ona görə də bəzi firmalar COVİD-19 müalicəsi üçün "monoklonal antitellər" istehsal etməyə başlayıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hətta Almaniyanın Səhiyyə naziri Jens Spahn Almaniyanın "Bild am Sonntag" qəzetinə verdiyi açıqlamasında bildirib ki, hökumət koronavirusla mübarizə aparmaq üçün yeni bir antikor əsaslı dərmanı alıb: "Gələn həftədən etibarən monoklonal antikorlar Avropa Birliyində ilk ölkə olaraq Almaniyada istifadə ediləcək".

Federal hökumət 400 milyon avroya 200 min dozanı artıq alıb.

*Qeyd edək ki, monoklonal antitellər xəstəliyə yoluxanlara tətbiq olunur və ağırlaşmanın qarşısını alır. ABŞ-ın keçmiş prezidenti Donald Tramp ilk dəfə keçən ilin oktyabr ayında koronavirusa yoluxduqdan sonra bu antikor ilə müalicə olunub.*

**Aynurə**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 235



## Şəklini çəkib sosial şəbəkələrdə yayıb

### İlana bənzəyən bibər görənləri təəccübləndirir

**Sosial şəbəkəlkərdə yayılan görüntülər maraq doğurub.**

Milli.Az haberler-ə istinadla bildirir ki, görüntülərdə həyətdə bitən bibərin ilana bənzəməsi əks olunub. Maraqlı görüntülər Türkiyənin Hatay vilayətində lentə alınıb.

Həyətdə bitən bibərin qəribə formada olduğunu görən Süheyla Özkurt adlı qadın təəccüblənərək onun şəklini çəkib sosial şəbəkələrdə yayıb. Dil çıxaran ilana bənzəyən qırmızı bibərin fotosu qısa zamanda xeyli sayda bəyənmə alıb, yüzlərlə istifadəçi tərəfindən paylaşılıb.

## Alimlər yaddaşı gücləndirən molekul aşkarlayıb



**Alimlər neyronları bərpa edən, yaddaş və koqnitiv bacarıqları gücləndirən molekul aşkarlayıblar.**

"Report" "La Voz de Cadiz"ə istinadən bildirir ki, İspaniyanın Kadis və Sevilya universitetlərinin əməkdaşlarının bununla bağlı apardıqları araşdırmalar müsbət nəticə verib. Araşdırmaçılar südləyən cinsindən olan bitkidən diterpen maddəsini əldə edə biliblər. Qeyd olunub ki, bu birləşmə proteinkinaz C (PKC) fermentini aktivləşdirir və emosiyaların formalaşması və yaddaşın möhkəmlənməsi mexanizmində iştirak edən hippokampda yeni neyronların yaradılmasına yol açır. Bunu siçanlar üzərində aparılan təcrübə təsdiqləyib. Tədqiqatçıların sözlərinə görə, gələcəkdə bu maddə beyin travması alan pasiyentlərin müalicəsində tətbiq edilə bilər.

## Toy hazırlıqları başlayıb

### Kayli Minoq ərə gedir



**Avstraliyalı 52 yaşlı müğənni Kayli Minoq 5 ildir münasibətdə olduğu "GQ" jurnalının kreativ direktoru Pol Solomonsa ərə gedir.**

Bu barədə "Daily Mail" nəşrinə Polun anası Qloriya Solomons məlumat verib. O bildirib ki, cütlük artıq toy hazırlıqlarına başlayıb.

*Qeyd edək ki, Kayli və Pol 1 il əvvəl nişanlanıb.*

## Ayda 520 min qazanacaq

### Fahriye Evcen tamaşaçı qarşısına çıxmağa hazırlaşır



**Aktrisa Fahriye Evcen ana olduqdan sonra övladını özü böyütmək istədiyi üçün yaradıcılığına fasilə vermişdi.**

Fahriye artıq yeni layihəsi ilə tamaşaçı qarşısına çıxmağa hazırlaşır.

10 serialdan rol təklifi alan sənətçi onlardan birində çəkilmək üçün razılaşaraq müqavilə imzalayıb.

Şirkət həmin ekran işinin hər bölümü üçün Evcene 130 min lirə (30 min 862 manat) ödəyəcək. Onun aylıq gəliri 520 min lirədən (123 min 448 manatdan) artıq olacaq.



**Qızların cinayəti və məhkəmə prosesi sadəcə Rusiyada deyil, dünya miqyasında geniş müzakirələrə səbəb olub**

# İntiqam ağır oldu

## Xaçaturyanı üç qızı birlikdə öldürüb



**Rusiyada baş vermiş dəhşətli hadisə ölkə ictimaiyyətini ayağa qaldırıb.**

Hadisə 2018-ci ildə baş versə də, olayın yeni detallarının üzə çıxması cinayəti təkrar gündəmə gətirib. 3 il əvvəl 57 yaşlı Mixail Xaçaturyan üç qızı - Krestina, Angelina və Mariya tərəfindən öldürülüb. Dəhşətli işgəncə və təcavüzə məruz qalan qızlar intiqam almaq üçün atalarını qətlə yetiriblər. İstintaqın məlumatına görə, M.Xaçaturyan hər gün sopa və dəmir parçası ilə döydüyü həyat yoldaşı Aureliya Dunduku evdən qovub. O gündən sonra qızların faciəli günləri başlayıb. Zülmə və təhqirə daha artıq tab gətirməyən üç bacı gecə atalarının yuxuya getməsini fürsət bilərək onun üzünə bibər qazı püskürdüblər. Daha sonra çəkiclə və bıçaqla dəfələrlə başına və bədəninə ardıcıl zərbələr endiriblər. 36 bıçaq zərbəsindən sonra atalarının öldüyünə əmin olan qızlar polisə gedərək cinayəti etiraf ediblər.

*(Davamı səh: 15-də)*

## Qılınclara maraq artıb

### İstehsalçı sifarişlərə yetişə bilmir





**Antaliyada bıçaq istehsalçıları son zamanlar tarixi seriallar və filmlərdə göstərilən qılınclara marağı artırdığını söyləyiblər.**



"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, onlar xüsusilə də Səlcuqlular və Osmanlı dövrlərinin təsvir olunduğu seriallarda sultanların və varislərinin istifadə etdikləri qılıncların diqqəti daha çox cəlb etdiyini bildiriblər. Bıçaq ustaları onlayn sifarişlər çatdırmaq üçün iş vaxtından artıq işlədiklərini deyirlər.

*(Davamı səh: 15-də)*

## Anası Bredi keçmiş arvadı ilə evləndirir



**2005-ci ildə həyat yollarını ayıran Cennifer Eniston və Bred Pittin yenidən bir araya gələcəyi deyilir.**

Pittin anası Ceyn oğluna yenidən Enistonla evlənməsi üçün təkid edir. Amerika mətbuatında yayılan xəbərlərə görə, Bredin anası ikinci gəlini Ancelinaya nifrət edib və onun oğlunun arvadı olduğunu heç vaxt qəbullanmayıb. Lakin birinci gəlini Cenniferə qarşı hər zaman hörmət və simpatiya bəsləyib. Buna görə də Ceyn oğlunun yenidən Enistonla evlənməsini istəyir.